# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 10 (3334) Şənbə / 30 yanvar - 1 fevral 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Şuşada və Ağdamda bölmələrimiz olacaq



**Elbay Qasımzadə,**
Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, Əməkdar memar

***Bu gün erməni işğalçılarının torpaqlarımızda törətdiyi milli-mədəni, ekoloji terror dünyanın gözü qarşısında baş verir. Yağı düşmənin məhv etməyə çalışdığı tarixi əsərlərimiz yenidən bərpa ediləcək. Tariximizə, memarlıq abidələrimizə, şəhər və kəndlərə edilən soyqırımı milli irsin qorunması ilə bərpa olunacaq. Bu mənada Azərbaycan memarlığının üzərinə böyük məsuliyyət, vəzifələr düşür. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, Əməkdar memar Elbay Qasımzadə maraqlı nüanslara diqqət çəkib.***

*Qoy memarlıq haqqında memarlar danışsınlar, rəssamlar isə şəkil çəksinlər...*

Səh. 3



# TÜRKİYƏ-RUSİYA

## Monitorinq Mərkəzi fəaliyyətə başlayır

***Bu gün Dağlıq Qarabağda atəşkəsə nəzarət etmək üçün Ağdamda yaradılan Rusiya-Türkiyə birgə monitorinq mərkəzi fəaliyyətə başlayacaq. Bu barədə Rusiya mətbuatı məlumatlı mənbələrə istinadən xəbər yayıb. Mərkəzdə 60 rus, 60 türk hərbçisi fəaliyyət göstərəcək. Həmçinin nəzarət pilotsuz uçuş aparatları ilə də həyata keçiriləcək. Qeyd edək ki, dekabrın sonlarında Türkiyənin müdafiə naziri Hulusi Akar Dağlıq Qarabağla bağlı razılaşmaların reallaşdırılması çərçivəsində 60 türk hərbçisinin Azərbaycana göndərildiyini açıqlamışdı. Dekabrın əvvəllərində iki ölkə arasında mərkəzin fəaliyyətinə dair razılaşma imzalanmış və onun funksiyaları dəqiqləşdirilmişdi. Ekspertlər monitorinq mərkəzinin fəaliyyətə başlamasını Azərbaycan və Türkiyə hərbi əməkdaşlığının növbəti qələbəsi hesab edirlər. Vurğulanır ki, mərkəz həm də Rusiya sülhməramlılarının Dağlıq Qarabağdakı fəaliyyətinə də nəzarət etmək və operativ məlumatlar toplamaq baxımından mühüm əhəmiyyət daşıyır.***

Ermənistan siyasiləri isə Monitorinq Mərkəzinin Ağdamda fəaliyyətə başlamasını Türkiyənin faktiki olaraq keçmiş münaqişə bölgəsində hərbi varlığının təsdiqi kimi dəyərləndirir, bunu İrəvan diplomatiyasının acı məğlubiyyəti kimi xarakterizə edirlər.



**Oleq Kuznetsov,**
rusiyalı hərbi ekspert

*Monitorinq Mərkəzinin fəaliyyəti nəticəsində rusiyalı sülhməramlıların məsuliyyət bölgəsindəki hər şey şəffaf olacaq*



■ **Rusiyalı hərbi ekspert Oleq Kuznetsov diqqəti daha çox Mərkəzdə fəaliyyət göstərəcək rus hərbçilərinin hazırlıq prosesinə yönəldir. Onun sözlərinə görə, rusiyalı hərbçilər hazırlıq dönəmində pilotsuz üçüş aparatlarının istifadəsi, Azərbaycan və Türkiyənin dili və mədəniyyəti ilə yaxından tanış olublar:**"Onlara vəzifələrinin icrasını tərəfdaşlarının mentalitenini nəzərə almaqla həyata keçirməyi öyrədiblər. Bu zamana qədər sülhyaratma missiyalarında bu cür yanaşma olmayıb. Misal olaraq, 80-ci illərin sonlarında Yuqoslaviyadakı sülməramlılara yalnız beynəlxalq hüquq məsələləri öyrədilirdi".

Ekspert bildirir ki, Rusiya Ağdamdakı monitorinq mərkəzinin fəaliyyətinə çox ciddi yanaşır. Mərkəzdə rus dilini bilən türk hərbçilərinin olacağı da istisna deyil: "Rusiya və Türkiyə hərbçiləri Suriyada sülhyaratma missiyası çərçivəsində çox yaxşı əlaqələr qurublar. Türkiyənin göndərdiyi hərbçilərin əksəriyyəti də Suriyada ruslarla birgə hərbi polis funksiyasını yerinə yetirmək təcrübəsi olanlardır. Qarabağa nəzarət özünün şərtlərinə görə Suriyanın şimalında həyata keçirilən nəzarətə oxşardır. Bu səbəbdən, hərbçilərin öz missiyalarını yerinə yetirmək baxımından adaptasiya çətinlikləri çəkməyəcəyi qənaətindəyəm".

O.Kuznetsovun qənaətincə, hər üç tərəf - Rusiya, Türkiyə və Azərbaycan monitorinq mərkəzindən koordinasiyalı fəaliyyət, ən azından, azərbaycanlı hərbçilər və rusiyalı sülhməramlıların təmas nöqtələrində, həmçinin bölgədə yaşananlara bağlı obyektiv informasiyalar gözləyir: "Müşahidə dronları Qarabağ üzərində uçaraq hərbi yüklərin və texnikanın istənilən yerdəyişməsini qeydə alacaq. Monitorinq Mərkəzinin fəaliyyəti nəticəsində rusiyalı sülhməramlıların məsuliyyət bölgəsindəki hər şey şəffaf olacaq və bu beynəlxalq ictimaiyyət üçün də anlaşılandır. Müasir müşahidə vasitələri ilə texniki nəzarət nəticəsində kimisə aldatmağın mənası yoxdur. Bu səbəbdən vəziyyətlə bağlı baxışlar daha obyektiv və konkret olacaq".

Göründüyü kimi, mərkəzin fəaliyyətinin əhəmiyytinə dair ermənilərdən fərqli olaraq Azərbaycan, Türkiyə və Rusiya arasında heç bir fikir ayrılığı yoxdur. Məqsəd isə bəllidir - 44 günlük müharibədən sonra Azərbaycanın əldə etdiyi qələbənin nəticələrini kölgələmək üçün erməni separatçılarının fəaliyyətini sıfıra endirmək. İrəvanın təxribatçı əməllərinin və çağırışlarının qarşısını almaq.

### Yeri gəlmişkən...





**Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Azərbaycanın Müdafiə naziri Zakir Həsənovla telefonla danışıb. Bu barədə Türkiyənin Azərbaycandakı səfirliyi məlumat yayıb. H. Akar bildirib ki, Türkiyə-Rusiya Ortaq Monitorinq Mərkəzinin yaradılmasına dair işlər tamamlanıb.**

Türk və rus əsgərlərin fəaliyyət göstərəcəyi Mərkəz bu gün fəaliyyətə başlayacaq: "Bir general və 38 personalımızın çalışacağı Mərkəzin atəşkəsin davamlılığına, sülhə və sabitliyə töhfə verəcəyinə inanırıq".

*Azad Əliyev*

MÜSAHİB



**Azay Kərimov,**
Qarabağ qazisi, istefada olan kəşfiyyat polkovniki

■ Bəlkə də Qarabağdakı sadə, yoxsul ermənilərlə dinc, yanaşı yaşaya bilərik...

■ O vaxt Malıbəyliyə qonşu kənddəki ermənilər bizə bir güllə də atmamışdılar...

■ Təəssüf ki, belə layiqli mədəniyyət xadimlərinin əvəzinə, Şuşanı heç bu 30 ildə yada salmayan kəsləri aparırlar o müqəddəs torpağa...

Səh. 2

GÜNÜN FOTOSU...



**Badamdar yenidən sürüşdü...**

GÜNÜN SİTATI

*"Cənubi Qafqazda sülh və sabitlik hər kəsin faydasınadır. Hamımız bu atəşkəsin davamlı olmasını istəyirik. Sadəcə istəmək kifayət etmir, töhfə vermək lazımdır"*



**Mövlud Çavuşoğlu,**
Türkiyənin Xarici İşlər naziri

KARİKATURA



**Xoş anlarınızı ölümə qurban verməyin...**

## Ermənistan altıtərəfli platformaya qatılmasa...

**Mühittin Ataman,**
Ankara Sosial Elmlər Universitetinin professoru

Diaspor Ermənistan dövlətini öz hədəfləri uğrunda siyasət yürütməyə məcbur etməkdədir.

Səh. 5

STATİSTİKA



**1993-cü ilə qədər Qarabağ bölgəsi və ətraf rayonlarda 167 faydalı qazıntı yatağı kəşf edilib, ehtiyatları hesablanaraq dövlət və sahə balanslarına salınıb və rəsmi rəqəm statusu alıb.**

Onlardan 141-i bərk filiz və qeyri-filiz və tikinti materialları, 26-sı yeraltı içməli şirin su və termal yataqlarıdır, o cümlədən həmin yataqların 16-sı yeraltı içməli su, 10-u isə termal-mineral sular kateqoriyasına daxildir.



Səh. 6

## Gündəmi sarsıdan intihar hadisələri

## Müsahib

### Dosye

**Elbay Qasımzadə 26 dekabr 1948-ci ildə Bakı şəhərində anadan olub. 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirib.**

1989-2001-ci illərdə illərdə Bakı şəhərinin baş memarı, Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma üzrə Baş İdarəsinin rəisi vəzifələrində çalışıb. Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinin professorudur. Azadlıq prospekti metrostansiyasının memarıdır.

**Mükafatları**

*"Azərbaycan SSR əməkdar memarı" - 1990*
*"Şöhrət" ordeni - 19 aprel 2000*
*"Şərəf" ordeni - 25 dekabr 2018*
*"Humay" milli mükafatı - 3 dəfə*
*"Uğur" milli mükafatı - 2 dəfə*

***Bu gün erməni işğalçılarının torpaqlarımızda törətdiyi milli-mədəni, ekoloji terror dünyanın gözü qarşısında baş verir. Yağı düşmənin məhv etməyə çalışdığı tarixi əsərlərimiz yenidən bərpa ediləcək. Tariximizə, memarlıq abidələrimizə, şəhər və kəndlərə edilən soyqırımı milli irsin qorunması ilə bərpa olunacaq. Bu mənada Azərbaycan memarlığının üzərinə böyük məsuliyyət, vəzifələr düşür. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, Əməkdar memar Elbay Qasımzadə maraqlı nüanslara diqqət çəkib.***



**Elbay Qasımzadə,**
Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, Əməkdar memar

# Şuşada və Ağdamda bölmələrimiz olacaq

***- Elbay müəllim, işğaldan azad olunan ərazilərimizlə bağlı sosial şəbəkə hesabınızda Azərbaycan memarlarına Qarabağın bərpası prosesində qüvvə və yaradıcılıq uğurları arzulamısız. Belə çətin ərəfədə, sizcə, memarlarımızdan nə tələb olunur?***

- Memar üçün ən mühüm faktor istedad və məsuliyyət hissinin olmasıdır. İstedad və məsuliyyəti varsa, daxilində vətənpərvərlik, vətəndaşlıq məsuliyyəti də olacaq, yüksək peşəkarlıq da... Təcrübə, bilik - bunların hamısı sonradan əldə olunan məsələlərdir. Ona görə də memarlıqda ən mühüm amili - məsuliyyət və peşəkarlıq hesab edirəm.

***- Azərbaycan Memarlar İttifaqı işğaldan azad olunmuş ərazilərin bərpası üçün hansı layihələri irəli sürüb? Sizcə, bərpa prosesi necə aparılmalıdır?***

- Memarlar İttifaqı qələbədən sonra Yuxarı Qarabağ üzrə Şuşada və Aşağı Qarabağ üzrə Ağdamda Azərbaycan Memarlar İttifaqının bölmələrinin açılışı ilə bağlı qərar qəbul elədi. Qələbə günü ilə bağlı "Yurdumuza qayıdaq! Yurdumuzu quraq!" mövzusunda müsabiqə elan elədik. Məqsəd - həmin rayonlardakı şəhər və qəsəbələrin gələcək görkəminin müasir standartlara uyğun olaraq bərpası ilə bağlı idi. Yaxın günlərdə müsabiqə yekunlaşdı və qalibləri mükafatlandırdıq. Ən çox xoşagələn məqam odur ki, qaliblərin hamısı gənc memarlardır. Bu onu göstərir ki, memarlarımız istedadlıdır, məsuliyyətlidir, vətənpərvərdir. Bu həm də onu göstərir ki, Azərbaycanda memarlıq sənətinin gələcəyi olacaq və var.

## Belə qəsəbə və kəndləri birləşdirmək lazımdır

**- Bir çox hallarda, gənclərin hansı memarlıq nəzəriyyəsindən istifadə etməsi məsələsi bir problem kimi qoyulur. Əgər nəzəriyyə problemi varsa, gənclər, memarlar milli memarlıq irsini hansı mənbələrdən öyrənəcək?**

- Gənclərimiz mütləq şəkildə universitet təhsili alırlar. Bizim Memarlıq və İnşaat Universitetində, hansı ki, orada həm də kafedra müdiriyəm. Gənclər orada Azərbaycan tarixi memarlığı haqqında kifayət qədər məlumatlar, biliklər alır, təcrübə keçirlər. Tələbələrin, hətta kurs, diplom işlərində də memarlıq abidələrinin bərpası layihələri hazırlanır, yəni gənclərin bilik səviyyələri yüksəkdir. İşğaldan azad olunmuş ərazilərdə bizim 800-dən çox abidəmiz var. Bəziləri düşmən tərəfindən dağıdılıb, bəziləri təhqir olunub, bəziləri erməniləşdirilib. Bunların hamısı qarşıda həllini gözləyən işlərdir. Bu gün hamı o ərazilərdə şəhərlərin, qəsəbələrin bərpası haqqında danışır. Düşünürəm ki, bunu tələsik həll etmək olmaz. Əvvəlcə o ərazilərin iqtisadi, sosial inkişafı bərpa edilməlidir. Birinci növbədə, o yerlərə dönən əhalinin hansı işlə məşğul olacağı, öz dolanışığını qurması üçün tələb olunan məsələlər həll olunmalıdır.

Bu infrastruktur qurulandan sonra şəhər və qəsəbələrin bərpası aparılmalıdır. Eyni zamanda həmin kəndlərin, qəsəbələrin əvvəlki yerləşdiyi yerdə bərpa edilməsi çox da vacib deyildir. Bəzi kəndlərdə 50 nəfər yaşayıb. Təkcə bu 50 nəfərə müasir qəsəbə tikmək olmaz. Əlli nəfər sakini olan o qəsəbələrin nə normal məktəbi ola bilər, nə də xəstəxanası. Ona görə də belə qəsəbə və kəndləri birləşdirmək lazımdır.

Abidələrin bərpasına elə indidən başlamaq lazımdır. Bildiyimə görə, bəzi abidələrin bərpa layihələrinin hazırlanmasına artıq başlanıb. Əlbəttə ki, bütün əsərlərdə Azərbaycanın mədəni irsi qorunub saxlanılmalıdır.

***- Elbay müəllim, Ağdamda, Füzulidə və digər viran qoyulmuş ərazilərimizdə məhv edilən abidələr hansı sənədlər əsasında yenidən bərpa ediləcək?***

- O abidələr işğaldan əvvəlki dövrdə mühafizəyə götürülmüşdü. Dövlət tərəfindən mühafizəyə götürülmüş abidələrin xüsusi siyahısı var və Nazirlər Kabineti tərəfindən təsdiqlənib. Bu abidələr haqqında məlumatlar var idi və pasportlaşdırılması aparılmışdı. Bundan əlavə müxtəlif kitablar, albomlar, o vaxtlar çap olunmuş məqalələr, tədqiqatlar var ki, onların daxilində fotolar, ölçü şəkilləri var. Əlbəttə ki, bütün bunların əsasında bərpa işləri aparılacaq.

***- Qarabağda yeni şəhərlər tikəcəyik. Oranın keçmiş memarlıq üslubu hansı formada qorunmalıdır? Milli ənənə ilə yanaşı hansı müasir, Avropa standartları uzlaşmalıdır?***

- Millilik hər bir əsərin daxilində olmalıdır. Məsələn, yaşayış evlərinin daxili quruluşu bizim Azərbaycan xalqının həyat tərzinə tabe olmalıdır. Həyat tərzimiz, adətimiz, ənənələr nəzərə alınmalıdır. Memarlıq görkəmində Azərbaycan memarlıq sənətinin irsi nəzərə alınmalıdır. Evlər mütləq müasir olmalıdır. O sənədlərə əsasən işlər qurulacaq. Biz hamımız daxilimizlə, düşüncəmizlə, fikrimizlə azərbaycanlıyıq.

Gəlin üst-başımıza baxaq: geyimimiz tamam başqadır. Nə başına əmmamə qoyan, nə də ayağına çarıq geyinən var. Hamı kimi memarlıq da müasirləşməlidir. Onun həcmi, daxili quruluşu mütləq xalqımızın adət-ənənəsinə müvafiq olmalıdır. Görkəmi müasir olmalıdır, çünki tikinti materialları müasirdir. Əvvəllər evləri çay daşından tikirdilər. Çay daşından, ümumiyyətlə ev tikmək olmaz, çünki çay daşının davamlılığı yaxşı deyildir. Daha heç kim çay daşından ev tikməyəcək.

***- Bu yaxınlarda qocaman bir rəssamın Bakının dəyişən görkəmi ilə bağlı fikirləri diqqətimi çəkdi. Rəssam deyir ki, dəyişən Bakı özünün milli-memarlıq xarakterini itirib və Bakıya gələn bu şəhərin əvvəlki özünəməxsusluğunu görə bilmir...***

*"Qoy memarlıq haqqında memarlar danışsınlar, rəssamlar isə şəkil çəksinlər..."*

- Qoy memarlıq haqqında memarlar danışsınlar, rəssamlar isə şəkil çəksinlər... Təbii ki, həyat, mühit daim dəyişir. Hər şey inkişafdadır. Nədənsə deyirlər ki, memarlıq yerində quruyub qalsın. Şəhərlər, insanlardan fərqli olaraq daim yaşayır. İnsan yaşayır və ömrünü bir gün bitirir. Şəhər inkişaf eləməsə, o da ölər. Bakı da inkişaf etdikcə simasını dəyişəcək.

## Bakı heç vaxt Şərq şəhəri olmayıb

***- Bakının memarlıq üslubu və arxitekturası nə dərəcədə dəyişib?***

- Kim nə deyir-desin, Bakı müasirləşəcək, bu, həyatın tələbidir. İnsanların zövqü dəyişir, müasirləşir, Memarlıq da insanların zövqünə uyğun olmalıdır. Ümumiyyətlə, memarlıq yarandığı dövrə məxsusdur. Onun görkəmi, quruluşu da o dövrə aid olmalıdır. Bu gün XIV əsrdə tikilmiş binanı XXI əsrdə təkrarlasaq, bizə gülərlər. Bakı bizim nəsillər çıxıb-gedəndən sonra da dəyişəcək. Bugünün körpələri böyüyüb yaşa dolacaqlar və onların dövründə də dəyişəcək, onlardan sonra da. Təsəvvür belə edə bilmirəm ki, 100-200 ildən sonra Bakı necə olacaq. Bununla bərabər Bakının gözəl tarixi memarlıq abidələri var, onları qorumaq lazımdır ki, 100 ildən sonra da həmvətənlərimiz o abidələrə baxıb keçmişlərinin necə olduğunu görsünlər, fəxr etsinlər.

***- Bakının mövcud durumu memarlıq baxımından sizi qane edirmi? Bakının avropalaşması ideyası ilə bağlı fikirləriniz nədir?***

- Bakı, ümumiyyətlə, Avropa şəhəridir, heç vaxt Şərq şəhəri olmayıb. Ondoqquzuncu əsrin ortalarında qala divarlarından Bayırşəhərə çıxan tərzdə Avropa şəhəri olub. O dövrün milyonçuları Avropadan memarlar çağırıblar və onlar burada Avropa memarlığını tətbiq ediblər.

***- Elbay müəllim, tarixi milli memarlıq ənənələrinin yaşadılmasına yetərincə nail ola bilirikmi?***

- Hər şey kimin o irsi necə başa düşməsindən asılıdır. Əgər kimsə fikirləşirsə ki, memarlıq layihəsində tağ milli memarlıqdır, o da yanlışdır. Tağ konstruktiv elementdir. Tağ Notr Damda, Vestminsterdə, İçərişəhərdə də var. O, Azərbaycan memarlıq elementi deyildir. Azərbaycan memarlığı onun mənəviyyatında, ruhunda olmalıdır.

***- Belə fikirlər də var ki, Azərbaycan memarlığının nəzəriyyəsi yoxdur. Bu fikir nədən qaynaqlanıb?***

- Azərbaycan memarlığının nəzəriyyəsi rəhmətlik alimlərimiz Əbdülvahab Salamzadə, Mikayıl Hüseynov, Leonid Bretanitski, Şamil Fətullayevin yazdığı yüzlərlə çoxcildli kitablarda yer alıb. Nəzəriyyə praktiki işin təhlili, izahıdır. Memarlıqda isə təcrübə olmasa, nəzəriyyə yarana bilməz. Bu, riyaziyyat deyil ki, birinci nəzəriyyə olsun, sonra onu həyata tətbiq eləsinlər. Memarlıq təsviri sənətdir. Burada əvvəl sənət yaranır, sonra da onun əsasında nəzəriyyəsi. Ümumiyyətlə, incəsənət də elədir.

## Memarlığın bir dili var

***- Memarlar deyirlər ki, hər xalqın memarlığının öz bədii dili var. Bu barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz, o memarlar bu sözləri deyirlər ki, özləri həyatlarında heç nə eləməyiblər. Onlar vaxtlarını belə orijinal sözləri icad eləməyə həsr ediblər. Bilirəm ki, memarlığın bir dili var, o da memarın istedadı, düşüncəsi, dünyagörüşü, məkanı görməsi və şübhəsiz ki, təkrar edirəm, vətənpərvərliyidir, vəssalam.

***- Azərbaycanda milli memarlıq üslubu, abidələri necə qorunur?***

- Memarlıq abidələrinin qorunması dövlət başçısının xüsusi diqqətindədir. Heydər Əliyev Fondu abidələrin bərpasında çox böyük işlər görür. Yüzlərlə abidəimiz bərpa olunub və bu gün də Qarabağ ərazisində olan abidələrimizin bərpası dövlət başçısının birbaşa nəzarətindədir. Ən əsası da odur ki, bizdə bütün abidələr dövlət hesabına bərpa olunur. Baxın görün, dünyada hansı bir ölkədə belə bir nümunə var. Digər ölkələrdə abidələri mesenatlar, hansısa ictimai qurumlar, sərmayəçilər qururlar. Bizdə isə bunu dövlət edir. Biz daim narazıyıq ki, abidələrimizin vəziyyəti yaxşı deyildir. Bu "yaxşı deyil" deyən adamlar heç vaxt qabağa çıxıb deməyiblər ki, bir abidəni verin, onu öz hesabımıza bərpa edək. Tənqid hər şeydən asandır. Tənqid eləmək üçün gərək sənin mənəvi əsasın olsun.

***- Bakı şəhərində memarlıq quruluşu, ləngərliyi baxımından sizin üçün ən zövqlü, diqqətçəkən məkan haradır?***

- Əlbəttə, Bakının tarixi mərkəzi - həm İçərişəhər, həm Bayırşəhər...

***- Demək, yenə də keçmişə qayıtdınız, tarixi memarlıq yenə də sizin üçün öz aktuallığını saxlayır...***

- Biz abidələrdən danışdığımıza görə, mən keçmişə qayıtdım. Yox, əgər müasir memarlıqdan danışırıqsa, Ağ Şəhəri göstərə bilərik. Gözəl bir əsərdir. Çirkinlik içərisində qalmış yerdə o cür gözəl əsər yaradıblar. Hökumət evinin yanında gözəl müasir binalar tikilib. Yəni müasir memarlıq da inkişafdadır. Memarlıq o dövlətdə inkişaf edir ki, iqtisadi durumu yüksəkdir. Kasıb ölkədə memarlıq ola bilməz. Memarlıq böyük vəsait tələb edən bir sənətdir. Rəssam şəkil çəkdi, asdı divara, alan olmasa qalacaq divarda, heç kimə də maneçilik törətmir. Memarlıq vəsait olmadan qurula bilməz. Hər binanın tikintisinə milyonlarla pul lazımdır. Əgər bu gün Bakıda, Azərbaycanda memarlıq sənəti inkişaf edirsə, deməli dövlətin iqtisadi durumu yaxşı səviyyədədir. Deməli, dövlət tərəfindən memarlıq sənətinə diqqət var.

***- Memarlıq rəssamla oxşardır?***

- Xeyr, çünki memarın texniki biliyi olmalıdır. Memar, həm də başa düşməlidir ki, yaratdığı əsəri necə həyata keçirəcəklər, necə tikiləcək, yaxud tikilə biləcəkmi. Bu, çox vacibdir. Memarlıq sənətinin ayrılmaz hissəsi texniki bilikdir. Rəssama o lazım deyil, o nə təsəvvür elədi - onu da çəkir. Rəssam əsərlərində məsuliyyət daşımır, amma memar məsuliyyət daşıyır. Onun bunası davamlı olmalıdır, uçmamalıdır.

***- Avropa klassikası üzərində tikilən, lakin bəzəkli tağlar və günbəzlərlə zənginləşdirilmiş binalar milli memarlıq abidəsi sayıla bilərmi?***

- Memarlıq harada yaranırsa, ora da məxsusdur. Azərbaycanda yaranıbsa, Avropa klassikası olsa da, Azərbaycan memarlığıdır.

Daşdan yonulmuş elementlər Avropa memarlığında daha geniş yayılıb, nəinki Şərqdə. Məsələn, İçərişəhərdə bizim Xan Sarayının Divanxanasını götürək. Orada çox gözəl plastika var. Bu, XVI əsrə aid bir əsərdir. Özü də o vaxt nə şablon olub, nə eskiz... Ola bilsin, bu, rəvayətdir, amma belə deyilir ki, o daşı yonan ustanın yanında oturub muğamat çalıblar, o da musiqiyə qulaq asaraq həmin ornamenti yonub. Ölçülərin hamısı eynidir, amma şablonsuzdur. Bunun özü böyük hissiyyat tələb edir. Həm o mühitin, miqyasın anlayışı... Bu, çox ciddi və mürəkkəb bir sənətdir. Memar genişbilikli insan olmalıdır - səhiyyəni də bilməlidir, təbiəti də...

***- Biz hansı dövrdə yaşamağımızdan asılı olmayaraq, millətin tarixi kökünü ifadə edən, içində böyük əzəmət, sakitlik hiss etdiyimiz abidələrə can atırıq. Nəyə görə?***

- Yəqin, diqqət yetirərsiniz ki, bizim ailələrdə yaşlı adamlara daha böyük məhəbbətlə, qayğı ilə yanaşırlar. Bax, bizim abidələr də həmin o yaşlı adamlara bənzəyir. Bilirik ki, onlar keçmişimizi təsvir edir və onlara görə çox narahatıq. Hər bir əşyanın, canlının müəyyən yaşama müddəti var.

Bir müddətdən sonra yaşlaşır, məhv olur. Vaxt var idi, Bakıda bütün qaraağaclar qurudu. Ona görə də tarixdən qalan o qocaman abidələri qoruyub-saxlamağa çalışırıq. Bu o demək deyildir ki, Azərbaycanda, Bakıda müasir memarlıq abidəsi yoxdur. Var. Bu memarlığı yaradanların əksəriyyəti azərbaycanlı memarlardır. Azərbaycanda memarlıq sənəti inkişafdadır.

***✍ Tahirə Qafarlı***

# PREZİDENTƏ YAZIRLAR



**Flora Bayramova, Bakı:**

- Hörmətli cənab Prezident,

Uğurlu siyasətiniz və qüdrətli Ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız möhtəşəm qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizin Vətənə və xalqa olan sıx bağlılığınız və sevginiz, əzmkarlığınız və qətiyyətiniz, Milli Ordumuza diqqət və qayğınız xalqımızda və əsgərlərimizdə böyük ruh yüksəkliyi yaratmaqla bizə zəfər qazandırdı. Siz ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq, müdrik siyasətiniz, möhkəm iradəniz, qətiyyətli mövqeyiniz, yüksək istedad və bacarığınız sayəsində bir daha dünyaya sübut etdiniz ki, Azərbaycan torpaqlarına göz dikənlərin aqibəti belə olacaq. Siz xalq üçün, gələcək nəsillər üçün yeni bir tarix yazdınız, elə bir tarix ki, əsrlər keçəcək, lakin bu tarix unudulmayacaq.

Cənab Prezident, mənim oğlum da Sizin komandanlığınızla bu Vətən müharibəsində Şuşaya qədər döyüş yolu keçmişdir. Möhtərəm Prezident, Allah Sizi Azərbaycan xalqının, Azərbaycan Ordusunun başının üstündən əskik etməsin.

**Allah Sizi daim qorusun!**

---

**Gültəkin Qasımova, Şirvan:**

- Möhtərəm Prezidentimiz,

İndiyədək heç bir sərkərdənin qazanmadığı bir qələbənin sevincini, qürurunu 44 gün ərzində bizə yaşatdınız. Sizin sayənizdə doğma torpaqlarımız düşmən tapdağından azad olundu, xalqımızın uzun sürən həsrətinə son qoyuldu. Siz dahi şəxsiyyət, hər bir azərbaycanlının qəlbində yaşayan ulu öndərimiz Heydər Əliyevin siyasətini layiqincə davam etdirirsiniz. Bu gün onun ruhu şaddır, çünki o, doğma Azərbaycanı hər zaman bugünkü kimi güclü və qüdrətli görmək istəyirdi. Torpaqlarımızı düşmən tapdağından azad etdiyiniz üçün Sizə minnətdarlığımızı bildirir, bu çətin, məsuliyyətli və şərəfli işinizdə, Azərbaycanımızın çiçəklənməsi və inkişaf etməsi naminə fəaliyyətinizdə böyük uğurlar diləyirik. Mən fəxr edirəm ki, Azərbaycanımızın Sizin kimi qüdrətli Prezidenti var, həmişə var olasınız.

---

**Cəfər Məmmədov, Gəncə:**

- Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan!

Azərbaycanın qurucusu və memarı, xalqımızın xilaskarı olan ulu öndərimiz Heydər Əliyev öz həyat və fəaliyyəti ilə Azərbaycanın XX əsr tarixini yazmışdır. Heydər Əliyevin yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarəetmə bacarığına, xalqa xidmət mədəniyyətinə görə dünyada nadir tarixi şəxsiyyətlər sırasında öz yeri vardır. Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkülü üçün bizlər ümummilli liderimiz Heydər Əliyevə minnətdarıq.

Siz isə XXI əsrdə dövlətimizə və xalqımıza qazandırdığınız möhtəşəm qələbə ilə bütün dünyaya Azərbaycanın gücünü, qüdrətini, xalqımızın siyasi iradəsini bir daha nümayiş etdirdiniz. Siz qalib sərkərdə kimi adınızı xalqımızın tarixinə qızıl hərflərlə yazdırdınız. Biz Sizinlə fəxr edirik, qürur duyuruq. Nə yaxşı ki, Sizin kimi Müzəffər Ali Baş Komandanımız var.

Siz insanları ən ali adlarla, mükafatlarla təltif edirsiniz. Məncə Siz özünüz ən yüksək mükafata layiqsiniz! Val olun, Cənab Prezident!

---

**Qafur Əhmədov, Sabirabad:**

Hörmətli Prezidentim.

- Ölkəmizin inkişafı uğrunda fədakar əməyiniz, hamımıza olan əvəzsiz dəstəyiniz danılmazdır və xalqımızın dəyər bilən vətəndaşları bunu çox yaxşı bilirlər.

Cənab Prezident, Sizin komandanlığınız altında şanlı Ordumuzun qəhrəmanlığı ilə qazandığımız möhtəşəm qələbə xalqımızı çox qürurlandırdı. Mənfur erməni işğalçılarının torpaqlarımızdan qovulmasına və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə görə hədsiz sevinirik.

Bizlərə yaşatdığınız bu böyük zəfərə görə hazırda çalışdığım "Azərtexnolayn" MMC-nin bütün əməkdaşları və öz adımdan Sizə dərin minnətdarlığımı bildirirəm və xalqımızın rifahı naminə gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

---

**Hüseyn İsgəndərlidən, Şirvan:**

- Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Siz xalqın xilaskarı, qalib sərkərdəsiniz, xalqını, millətini yumruq kimi öz ətrafında birləşdirən müzəffər Komandansınız. Azərbaycan xalqının Sizə olan inamını və ümidlərini doğrultmaqla Siz tarixi ədaləti bərpa etdiniz. Buna görə xalqımız Sizə minnətdardır, Sizinlə qürur duyuruq.

Sizin xarici siyasət arenasında göstərdiyiniz əzmkarlığın və qətiyyətliliyin şahidi olduqca qəlbimiz fəxr hissi ilə alovlanır.

Hazırda Sizin rəhbərliyinizlə ölkəmizin sosial-iqtisadi həyatının bütün istiqamətlərində sürətli inkişaf baş verir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan bu siyasət hazırda onun layiqli davamçısı kimi Sizin tərəfinizdən böyük uğurla həyata keçirilir.

Azərbaycan xalqı əmindir ki, Sizin yüksək şəxsi keyfiyyətləriniz, intellektiniz, zəngin idarəetmə təcrübəniz, işgüzarlıq və təşkilatçılıq qabiliyyətinə söykənən fəaliyyətiniz xalqımıza və dövlətimizə bundan sonra da yeni-yeni nailiyyətlər qazandıracaq.

**Allah Sizi qorusun!**

---

**Kamal İbrahimov, Ağstafa:**

- Hörmətli cənab Prezident,

Sizin uzaqgörən siyasətiniz nəticəsində uzun illərdir düşmən tapdağında olan Qarabağımız azad edildi. 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı xain düşməndən azad etməklə, Siz öz gücünüzü bir daha bütün dünyaya sübut etdiniz. Siz müzəffər Ordumuzun yenilməz Ali Baş Komandanı oldunuz və ölkəmizin ərazi bütövlüyünü təmin etdiniz.

Siz qüdrətli dövlət başçısı olmaqla yanaşı, həm də layiqli övladsınız. Ulu öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz. Xalqı, milləti üçün yaşayan, ömrünü millətinə həsr edən Ulu öndərimizin ruhu indi şaddır. Nə xoş Sizə ki, bu çətin işi şərəflə yerinə yetirdiniz. Siz də Ulu Öndərimiz kimi xalqımızın qəlbində əbədiyaşarlıq qazandınız, adınızı xalqımızın tarixinə qızıl hərflərlə həkk etdirdiniz.

Hazırda Sizin sayənizdə doğma Vətənimiz Azərbaycan günügündən çiçəklənir və inkişaf edir. Xalqımız firavan və azad yaşayır. Mənim 62 yaşım var. Birinci Qarabağ müharibəsi veteranıyam. Oğlum isə həm 2016-cı il aprel döyüşlərində, həm də ikinci Qarabağ müharibəsində könüllü olaraq iştirak etmişdir.

Sizinlə fəxr edirəm, cənab Prezident! Mənə və bütün xalqımıza bu gözəl günləri bəxş etdiyiniz üçün Sizə sonsuz təşəkkürlərimi bildirirəm.

# Müasir məzmunlu magistr proqramları

## Layihə



## Təhsilalanlara müasir peşələri daha əhatəli öyrənmə imkanı

***Dördüncü sənaye inqilabının gətirdiyi reallıqları, rəqəmsallaşmanı, texnologiyaların birləşməsini nəzərə alaraq innovasiyalar və informasiya texnologiyaları, kiber təhlükəsizlik, rəqəmsal marketinq və data analitika kimi ixtisaslar üzrə yeni müasir məzmunlu magistr proqramları hazırlanıb. Qeyd edək ki, bu barədə təhsil naziri Emin Əmrullayev bildirib. O qeyd edib ki, ölkə iqtisadiyyatının mövcud potensialını tam şəkildə qavramaq, qlobal iqtisadi rəqabətdə Azərbaycanın rolunu düzgün qiymətləndirmək kadr hazırlığı ilə vəhdət təşkil etməlidir:***

"Ali təhsil sahəsində davamlı, uzunmüddətli və hərtərəfli keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi üçün savadlı və hazırlıqlı mütəxəssislər yetişdirilməsini təşviq edirik. Biz ümumi təhsil sahəsində də şagirdlərimizin bu dəyişikliklərə hazırlıqlı olması üçün müxtəlif layihələr çərçivəsində Robototexnika, 3D CAD Modelləşdirmə və Çap, Proqramlaşdırma, Nano və Neyro texnologiyalar, Mühəndislik modulları əsasında öyrətməni həyata keçiririk. Eyni zamanda təhsilalanlara müasir peşələr üzrə ilkin bilik və bacarıqları aşılamaq üçün peşə təmayüllü sinifləri təşkil edərək prosesin sürətləndirilməsində maraqlıyıq".



**Nadir İsrafilov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini

> "*Magistr imtahanları ayrı-ayrı universitetlərin planını doldurmaq xətrinə keçirilməməlidir*"

Yeri gəlmişkən, ötən il Nazirlər Kabineti "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda dəyişiklik edib. Dəyişikliklə magistratura səviyyəsində əyani (tədrisə tam cəlb olunma - fulltime və tədrisə qismən cəlb olunma - parttime) və qiyabi təhsilalma formaları müəyyən edilib. Magistratura səviyyəsində əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddəti 1,5-2 ildir (qiyabi forma üzrə təhsil müddəti əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddətindən altı ay artıqdır). Bu müddət ayrı-ayrı ixtisaslaşmaların təhsil proqramları ilə müəyyənləşdirilir.

Magistratura səviyyəsində əyani təhsilalma formasının tədrisə qismən cəlb olunma (parttime) növü üzrə isə təhsilin müddəti təhsilalanın fərdi tədris planına uyğun olaraq müəyyənləşdirilir. Magistr təhsilinin məzmunu tədris prosesinin və elmi tədqiqat işlərinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ, laboratoriya və s.), ayrı-ayrı fənlərin həcmini, ixtisasın ixtisaslaşmaları üzrə təhsil proqramında qoyulan tələbləri əhatə edir.

Tədris prosesinin və elmi tədqiqat işlərinin planlaşdırılması, təşkili tədris planı (nümunəvi işçi və fərdi) və fənn proqramları və ona müvafiq hazırlanmış fənlər üzrə işçi proqramları əsasında həyata keçirilir. Bu planların forma və strukturu ali təhsil müəssisəsi və AMEA tərəfindən müəyyənləşdirilir. Təhsil proqramlarında göstərilən fənlər üzrə proqramlar ali təhsil müəssisələri və AMEA tərəfindən hazırlanır, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir, tədris planlarına təhsil müəssisələri və AMEA tərəfindən daxil edilən seçmə fənlər üzrə proqramlar isə təhsil müəssisələri və AMEA tərəfindən təsdiq ediləcək.

Fənlər üzrə işçi proqramları (sillabuslar) isə ali təhsil müəssisəsi və AMEA tərəfindən hazırlanacaq və təsdiq ediləcək. İşçi tədris proqramı (sillabus) - fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirilmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını əks etdirən sənəddir. Magistratura səviyyəsində tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (Avropa ölkələrində tətbiq olunan AKTS - Avropa Kredit Transfer Sistemi) ilə həyata keçiriləcək.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov deyib ki, magistratura ali təhsiln ikinci pilləsi olaraq, ali təhsiln birinci-bakalavriat pilləsində müəyyən ixtisaslar üzrə qazanılmış biliklərin dərinləşdirilməsinə xidmət edir:** "Avropanın "Bolonya prosesinə" qoşulmuş ölkələrində olduğu kimi, o cümlədən bizim təhsil sisteminə də ümumi Avropa ortaq təhsil məkanı yaratmaq məqsədilə magistr təhsil pilləsi daxil edilib. Magistr iki il, peşə yönümündən asılı olaraq öncədən alınmış təhsili elmi cəhətdən dərinləşdirməyə və əlavə ixtisasa yiyələnməyə xidmət edə bilər.

Azərbaycanda magistr təhsilinin əsasları "Azərbaycan respublikasının təhsil qanununda" öz əksini tapıb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi "Azərbaycan Respublikasının çoxpilləli ali təhsil sistemində magistr hazırlığı haqqında Əsasnamə" barədə Respublika Nazirlər Kabinetinin 13 fevral 1997-cu ildə müvafiq qərar qəbul olunub. Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnaməyə əsasən magistr proqramına qoyulan ümumi tələblərə əsasən magistr təhsil proqramı uyğun istiqamətlər üzrə bakalavr proqramından və təxminən onunla bərabər nisbətdə müəyyənləşdirilmiş sırf tədris və elmi-tədqiqat tərkib issələrini özündə birləşdirən ikinci pillə proqramından ibarətdir. Bu proqramın tədris hissəsinə peşə təhsilinin dərinləşməsinə yönəlmiş fənlər və bölmələr, eləcə də xarici dil və ixtisas fənləri daxil edilməlidir. Magistrlərin elmi-tədqiqat işinin məzmunu fərdi planla müəyyən edilir. Əsasnamədə ali təhsil müəssisələrində magistr hazırlığını təmin edən şərtlər, magistr proqramına qoyulan ümumi tələblər, magistraturada yekun (buraxılış) attestasiyası və bir çox digər müddəalar öz əksini tapıb". Mütəxəssis vurğulayıb ki, gənclərin elmə maraq göstərməsi üçün stimullaşdırıcı tədbirlər sırasında dövlət tərəfindən magistratura təhsilinə təşviq üçün müvafiq addımlar atılır: "Təbii ki, magistratura təhsilinin ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutduğu və məzunlara peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verdiyi nəzərə alınaraq, ali təhsil səviyyəsinin ikinci pilləsi olan magistraturanın ixtisaslaşma prosesinə önəmli yer verilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Bu gün elm sahəsində çalışanların əksəriyyəti, yaslı nəslin nümayəndələridir. Gənclərin elmə maraq göstərməsi üçün stimullasdırıcı tədbirlər sırasında dövlət tərəfindən magistratura təhsilinə təşviq üçün müvafiq addımlar atılır. Magistrantlara hərbi xidmətdən möhlət hüququ verilir. Bununla belə, magistraturaya sənəd verənlərin sayını tənzimləmək üçün tələb-təklif prinsipi ciddi şəkildə gözlənilməlidir. Bu dərəcəni alan şəxslərin işlə təminatına xüsusi diqqət yetirilməlidir.

Magistr imtahanlarıı ayrı-ayrı universitetlərin planını doldurmaq xətrinə keçirməməlidir. Bir də ki, bu sahədə müəyyən işlər görülməsinə baxmayaraq istər Əsasnamə qəbul edilməsindən, istərsə də Qaydaların təsdiq olunmasından xeyli müddət keçib. Bəzi Əsasnamə tələblərinə lazımi diqqət yetirilməyib, bəzi qaydaların işlək mexanizmlərində boşluqlar yaranıb. Ali təhsilin istər bakalavriat, istərsə də magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) "Təsnifat"ında müyyən dəyişikliklər edilib. Bəzi ixtisasların aktuallığı özünü itirib, yeni ixtisaslara tələbat yaranıb ki, bu da reallıqlara cavab verə biləcək ixtisaslar üzrə yeni müasir məzmunlu magistr proqramları hazırlamaq zərurəti yaradıb. Nazirin də qeyd etdiyi kimi, "Təhsil Nazirliyi olaraq kadr potensialımızın dünyada gedən sənayeləşmə prosesinə hazırlıqlı olması üçün müxtəlif təhsil pillələri üzrə fəaliyyəti stimullaşdırmağa çalışırıq".

### Ekspert rəyi

■ **Təhsil eksperti Kamran Əsədov isə bildirir ki, bu gün ali təhsil müəssisələrində nəzəri biliklərdən çox praktiki vərdişlər aşılanmalıdır:**

"Düzdür, magistratura səviyyəsində dünya təcrübəsinin Azərbaycan təhsil sisteminə tətbiq edilməsinin vaxtı çatıb. Bunu qəbul imtahanı ilə həyata keçirmirlər. Universitetlərdə ixtisaslar üzrə çatışmazlığı, ciddi problemləri aradan qaldırılmaq lazımdır. Hazırda Avropada və Türkiyədə dərslərin əksəriyyəti tədqiqatyönümlü fənlərdir. Tədqiqat metodları, ixtisasa uyğun müxtəlif proqramlar, təhlil aparma metodları və sair tədris edilir. Bizdə bunların hansı var? Dünya yeni bir dövrə qədəm qoyur, daha çox ixtisas bilikləri yüksək səviyyədə olan kadrlarla ehtiyac duyulur, biz isə ondan imtina edirik".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## Sosial

### İnsan orqanizmində koronavirusa qarşı təbii qoruma hormonu tapılıb

**"Ağ ciyərlərdə əmələ gələn melatonin hormonu koronavirusa qarşı maneə rolunu oynayır". Braziliyanın San Paulo Universitetinin alimləri bu nəticəyə gəlib.**

Alimlər laboratoriya şəraitində müəyyən ediblər ki, melatonin giriş nöqtələrində - burun və ağ ciyər yollarındakı hüceyrələrdə zülalları kodlayan genləri virusun zədələməsinin qarşısını alır. Beləliklə, hormon bu toxumaların yoluxmasının qarşısını alır və virusun immunitet reaksiyasını boğur, onu bir neçə gün tənəffüs yollarında saxlayır, sonra başqa bir daşıyıcı tapmaq üçün hərəkətə keçir.

Tədqiqat müəlliflərinə görə, onların kəşfi bəzi insanların koronavirusa yoluxmadığını anlamağa imkan verir. Mütəxəssislər melatonin hormonunun burun damlaları və ya sprey şəklində koronavirusun inkişafının qarşısını almaq üçün istifadə edilə biləcəyinə əminliklərini vurğulayıblar.

### İctimai nəqliyyatla bağlı qadağanın müddəti uzadılıb



**Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyətin müddəti uzadılıb. Bu, Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" qərarına etdiyi dəyişiklikdə əksini tapıb.**

Qərara əsasən, 2021-ci il 30 yanvar saat 00:00-dan 1 fevral saat 06:00-dək, 6 fevral saat 00:00-dan 8 fevral saat 06:00-dək, 13 fevral saat 00:00-dan 15 fevral saat 06:00-dək, 20 fevral saat 00:00-dan 22 fevral saat 06:00-dək, 27 fevral saat 00:00-dan 1 mart saat 06:00- 2 dək, 6 mart saat 00:00-dan 8 mart saat 06:00-dək, 13 mart saat 00:00-dan 15 mart saat 06:00-dək, 20 mart saat 00:00-dan 22 mart saat 06:00-dək, 27 mart saat 00:00-dan 29 mart saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılmalıdır. Bu Qərar 2021-ci il yanvarın 30-dan qüvvəyə minir.

Qeyd edək ki, bundan öncə qüvvədə olan qərarda 2021-ci il 2 yanvar saat 00:00-dan 4 yanvar saat 06:00-dək, 9 yanvar saat 00:00-dan 11 yanvar saat 06:00-dək, 16 yanvar saat 00:00-dan 18 yanvar saat 06:00-dək, 23 yanvar saat 00:00-dan 25 yanvar saat 06:00-dək, 30 yanvar saat 00:00-dan 31 yanvar saat 06:00-dək ictimai nəqliyyatın hərəkətinin dayandırılması əksini tapmışdı.




### Sosial kartlar ləğv olunacaq

**Azərbaycanda sosial kartlar ləğv olunacaq. Hafta.az-ın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli deyib.**

M.Abbasbəyli deyib ki, bunun üçün 30-a qədər normativ hüquqi aktda dəyişiklik edilib. Onun sözlərinə görə, Agentliyin elektron sistemlərdə də müvafiq uyğunlaşdırmalar artıq təmin olunub və bu prosesə tam hazırıq: "Qanunvericiliklə bağlı son mərhələ də qəbul ediləndən sonra sosial kartları dövriyyədən çıxara biləcəyik. Kartları şəxsiyyət vəsiqəsinin üzərindəki FİN nömrələr sosial kartların nömrələri ilə artıq uyğunlaşdırılıb. Yəni sosial sığorta nömrəsi yenə qalacaq, amma karta ehtiyac olmayacaq".

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadənin sözlərinə görə, fevralın 9-dan magistraturaya sənəd qəbulu başlayacaq, magistratura səviyyəsinə qəbul imtahanı (1-ci şans) fevralın 28-də keçiriləcək.

■ Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri Mustafa Abbasbəylinin sözlərinə görə, əgər sərt karantin rejimi tətbiq olunsa, növbəti aylarda pandemiya ilə əlaqədar 190 manatın verilməsi barədə qərarı Nazirlər Kabineti qəbul edə bilər.

■ Dünən Ağdamda ANAMA-nın Təmizləmə Qrupunun Bölmə rəhbəri, 1983-cü il təvəllüdlü Mirzəyev Elməddin Tofiq oğlu xidməti vəzifəsini yerinə yetirərkən Ermənistan tərəfindən basdırılmış piyada əleyhinə minanın zərərsizləşdirilməsi zamanı mina partlayışı baş verib, onun sol ayağı topuq nahiyəsindən travmatik amputasiya olunub və çox saylı qəlpə yarası alıb.

■ Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə Qabil Qasımov Abşeron rayon prokuroru, Əli Qurbanov isə Tərtər rayon prokuroru vəzifələrinə təyin ediliblər.

■ "Donbassın birbaşa və ya dolayısı ilə Rusiyanın tərkibinə daxil olması məsələsi gündəmdə deyil" - bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

■ "Azərbaycanını strateji valyuta ehtiyatları yanvarda 0,3% artaraq 51,4 mlrd. ABŞ dollarına çatıb"- bu barədə Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib.

■ AFFA-nın İcraiyyə Komitəsinin qərarı ilə AFFA yeni "Tofiq Bəhramov mükafatı"nı təsis edib, qurum tərəfindən seçilən futbol hakiminə həmin mükafat veriləcək.

■ Ötən il daxili işlər orqanlarının əməkdaşları tərəfindən karantin rejimini pozmaqla xəstəliklərin yayılması üçün real təhlükə yaratma faktlarına görə 689, o cümlədən COVID - 19 diaqnozlu şəxslərin evdən çıxması ilə bağlı 674 cinayət işi başlanıb, həmin şəxslərdən 46 nəfər məsuliyyətə cəlb olunub.

■ Gəncədə 2007-ci il təvəllüdlü H.A zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib, yeniyetmə qızın yaşadığı evin vanna otağında dəm qazından zəhərləndiyi ehtimal olunur, faktla bağlı araşdırma aparılır.

■ Fevralın 1-də Milli Məclisin 2021-ci il yaz sessiyasının ilk plenar iclası keçiriləcək, iclasın gündəliyinə 19 məsələ daxil edilib.

■ "İşğaldan azad olunan ərazilərdə ermənilər tərəfindən 30 il ərzində 54 min 328 hektar meşə ərazisi məhv edilib" - bu fikirləri ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev deyib.

■ Sentyabrın sonunadək Bolqarıstan Azərbaycandan təxminən 225 milyon kubmetr təbii qaz alacaq - bu barədə "Bulqarqaz" şirkəti bildirib.

■ Şəki Ağır Cinayətlər Məhkəməsində Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat nəticəsində həbs edilən, Yevlax Rayon İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.

■ Hindistanın paytaxtı Delhidə İsrail səfirliyinin yaxınlığında partlayış törədilib, hadisə nəticəsində səfirliyə məxsus bir neçə avtomobilə ziyan dəyib, xəsarət alan olmayıb.

■ Bakı-Qazax yolunun Goranboy rayonunun Dəliməmmədli şəhərindən keçən hissəsində "Mercedes Vito" markalı mikroavtobus yük maşınına çırpılıb, 1 nəfər hadisə yerində ölüb, 6 nəfər isə xəsarət alıb.

■ Futzal üzrə Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsində Slovakiyaya qarşı ilk oyununu keçirib, qarşılaşma Azərbaycanın 4:1 hesablı qələbəsi ilə başa çatıb.

## Müsahib



**Əfşar Süleymani,**
İranın Azərbaycandakı keçmiş səfiri

Bu günlərdə İranın Xarici İşlər naziri Cavad Zərif Bakıya səfər etdi. Vətən müharibəsindən sonra qonşu İrandan ölkəmizə ilk dəfə səfər edən XİN başçısı danışıqlar apardı, iqtisadi-siyasi müstəvidə məsələləri müzakirə elədi, xüsusilə də ölkəsinin azad olunmuş ərazilərin bərpasında iştirak etmək istədiyini dedi və müsbət cavab aldı. Onun Bakıdan sonra Ermənistana, Rusiyaya və son olaraq Türkiyəyə səfər etməsi, əslində, Zərifin səfər portfelində ictimaiyyətə bəlli olmayan detalların olmasına dair söz-söhbət yaradıb. İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani ilə söhbətimizdə bu məqamlara aydınlıq gətirməyə çalışdıq.

# Keçmiş səfirdən Rusiyaya ittiham

- Danışıqların ictimaiyyətə bəlli tərəfləri var ki, bunlar iki ölkə arasında bütün sahələrdə - iqtisadi, siyasi, elmi-mədəni və sair müstəvilərdə əməkdaşlığı inkişaf etdirməyi nəzərdə tutur. Xüsusilə iqtisadi-ticarət sahəsində Şimal-Cənub dəhlizi, enerji mübadiləsi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında İran şirkətlərinin iştirakı, dəmir yolunun tikintisi və sair məsələlər müzakirə edilib. Təbii ki, ictimaiyyətə açılmayan xüsuslar da ola bilər danışıqlarda. Yeni Xəzər məsələsini, Qarabağda son hadisələri ki, burada ruslar nə elədi, başqaları nə iş gördü və sair məsələlərdən danışıla bilər. Ümumiyyətlə, səfərlər hər zaman olub və bundan sonra da olacaq. Bu səfərin reallaşması o demək deyil ki, bütün məsələlər danışıldı və həllini tapdı. Mümkündür ki, bir sıra sahələrdə ümumi razılıq əldə olunsun, amma qərara bağlanmasını həmin sahəyə baxan nazirliklərə həvalə etsinlər.

Diplomatiyada heç bir şey bir gündə başa gəlmir. Xüsusilə də Şimal-Cənub layihəsi çərçivəsində Astara-Rəşt dəmir yolu xəttinin tikilməsi, eləcə də işğaldan azad edilmiş ərazilərdəki dəmir və şose yollarının bərpası və sair vaxt aparan məsələlərdir. İranla Azərbaycan arasında enerji mübadiləsi məsələsi də gündəmdədir. Düzdür, bu sahələrdə artıq çoxdan əməli əməkdaşlıq mövcuddur, amma təkmilləşdirilməsi, daha da genişləndirilməsi vacibdir.

***- Zərif Bakıdan sonra danışıqları Moskva və İrəvanda davam etdirib və səfərini Ankarada yekunlaşdıracaq. Sizcə, Rusiya və Ermənistanda, yaxud Türkiyədə nələri danışacaq? Axı Qarabağ problemi başa çatıb, torpaqlarımız əsarətdən azad edilib...***

- Bilirsiniz, Azərbaycan ərazisinin böyük hissəsi azad olunsa da, Dağlıq Qarabağın bir hissəsinə hələ də nəzarət etmir. Düzdür, o ərazilər də sənədlərdə, beynəlxalq hüquq müstəvisində Azərbaycanındır, amma səmimi danışaq: Azərbaycan Ordusu artıq Şuşaya daxil olmuşdu. Bu şəhər elə hündür və əlverişli yerdə yerləşir ki, oradan hərəkət etməklə Xankəndini rahatca azad eləmək olardı. Ruslar hər zaman olduğu kimi, yenə də buna imkan vermədi. Rusiya öz hərbi qüvvələrini əraziyə gətirmək üçün münasib vaxtı gözlədi və məlum saziş imzalandı. Bu gün İranda mətbuatda yazılır və görürük ki, hələ də Ermənistanda Dağlıq Qarabağla bağlı bəzi qarışıq söhbətlər gedir, Araik Arutunyan hələ də özünü prezident hesab edir, iclaslar keçirir, qərarlar verir, ruslar da onlara müəyyən dəstək verir və sair. Biz İran dövləti olaraq hesab edirik ki, vaxtilə Qarabağdan çıxarılmış azərbaycanlılar da evlərinə qayıtmalıdır. Hər halda biz bunu görmürük. Putin ara-sıra porodoksal ifadələr işlədir, gah Azərbaycanın ərazi bütövlüyünün bərpasından söz açır, gah da ermənilərin hüquqlarını qoruyur. Elə götürək sülhməramlı qüvvələri. Onlar Qarabağda tikinti-quruculuq işləri ilə məşğuldur, erməniləri Ermənistan gətirib orada yerləşdirirlər və sair. Sülhməramlının işi hərbi təhlükəsizliyi, ictimai asayişi qorumaqdır, humanitar məsələlər onların səlahiyyətində deyil. Ermənistanın naziri gedib Xankəndiyə iclas keçirir, başqa məsul şəxslər ora səfər edir, bunlar yolverilməzdir və bu səfərlərin baş tutması üçün rəsmi Bakının razılığı mütləq alınmalıdır.

> *Ermənistan hələ də özünü Qarabağ ermənilərinin mühafizəçisi kimi görür*

***- Yeri gəlmişkən, bundan sonra Qarabağ ermənilərinin statusu necə olacaq, keçmiş diplomat olaraq ermənilərə hansı statusun veriləcəyini gözləyirsiniz?***

- Bir xüsusa diqqət çəkim: Cavad Zərif İrəvanda olanda Ermənistanın xarici işlər naziri Ayvazyan deyib ki, Artsaxın, yəni Qarabağın siyasi gələcəyi məsələsi həll olunmamış qaldığı üçün regional əməkdaşlıq mümkün deyildir. Hansı ki, burada Cənubi Qafqazın üç respublikası, Türkiyə, İran və Rusiyanın birlikdə əməkdaşlıq etməsi, təhlükəsizliyi qoruması və sair nəzərdə tutulur. Ermənistan hələ də özünü Qarabağ ermənilərinin mühafizəçisi kimi görür, bu da yaxşı hal deyil.

***- Azad olunmuş torpaqların yenidənqurulması prosesinə start verilib. Türkiyə, İtaliya, Macarıstan kimi ilk başdan Azərbaycana dəstək verən ölkələr bərpa-tikinti işlərinə cəlb ediliblər. İranın da istəyi var və nazir Zərifə Bakıda müsbət cavab verildi. Maraqlıdır, quruculuq işlərində İran hökuməti və ya ayrı-ayrı özəl şirkətlər hansı sahələrdə daha çox töhfələrini verə bilər?***

- Əlbəttə, İranın işğaldan azad edilmiş Azərbaycan torpaqları ilə 135 kilometrlik sərhədi mövcuddur. Bu qədər yaxın olduğu üçün əlbəttə, İranın özəl şirkətlərinin, hətta hökumətin özünün də həmin ərazilərin tikinti-bərpa prosesində iştirakı mümkündür.

İran tərəfi bölgənin yol infrastrukturunun bərpasında, binaların tikintisində, su, qaz, işıq şəbəkəsinin bərpa və yenidənqurmasında əvəzsiz rol ala bilər. Bu işləri həm İran şirkətləri birbaşa edə bilər, həm də tikinti məhsulları, avadanlıqları ilə təchiz də edə bilər. İndi bilmirəm, o ərazilərin bərpasında iştirak qaydaları necədir. Ola bilər, tenderdə qalib gəlmiş şirkətlər etsin bunu, yaxud dövlət özü müqavilə bağlayaraq, işi hansısa ölkəyə və ya şirkətə versin - qaydaları dəqiq bilmirəm. Bu bir reallıqdır ki, İran tərəfinin böyük potensialından yararlanmaq Azərbaycana həm qiymətdə ucuz, həm də vaxt məsələsində tez başa gələr. Coğrafi yaxınlıq bütün bunlara əsas verir. Fikrimcə, məsələn, Azərbaycan tərəfi işğaldan azad edilmiş hər rayonu bir və ya iki ölkənin şirkətlərinə həvalə edə bilər ki, ən qısa vaxtda tikib bərpa etsinlər. Bu həm tez başa gələr, həm də keyfiyyət müstəvisində məsuliyyəti artırardı. Hər halda arzumuz budur ki, tezliklə ərazilərin yenidənqurma prosesi başa çatsın, insanlar ev-eşiklərinə dönsünlər.

***- Bir az vaxtından tez verilmiş sual olsa da, işğaldan azad edilmiş ərazilərimiz İranla xeyli məsafədə həmsərhəddir. Azərbaycan tərəfdən sərhədçilər iş başındadır. Bu bölgədə yeni sərhəd-buraxılış məntəqəsinin açılışı, məsələn, Xudafərin su anbarı və enerji stansiyası bölgəsində birgə idarələrin və sair yaradılması müzakirə mövzusudur, yoxsa doğrudan da çox tezdir?..***

- Yox, niyə tez olur ki, əgər sərhəd varsa qorunmalıdır. Həmin ərazidə yeni gömrük-keçid məntəqəsi də mütləq açılmalıdır. Düzdür, bir az vaxt lazımdır, çünki quruculuq işləri getməlidir. Prezident İlham Əliyev də demişdi ki, azad edilən ərazilərdə dostluq, qardaşlıq sərhədi yaradılacaq.

Təbii ki, o ərazilər məskunlaşandan sonra gediş-gəliş də olacaq, ticarət də aparılacaq, həmin ərazilərdə şirkətlərin, təşkilatların ofisləri yaradılmalıdır, ümumiyyətlə, bu məsələlərin əksinə daha tez həlli bölgənin yenidən qurulmasını sürətləndirər.

***- Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirəcək nəqliyyat-enerji dəhlizinin yaradılması üzərində iş gedir. İran bu dəhlizdə iştirak edəcəkmi və ümumiyyətlə, İran bu dəhlizdən necə faydalanmağı düşür?***

- Bu dəhliz sovet dönəmində də olub, amma son 30 ildir müharibə səbəbindən bağlı qalıb. Odur ki, Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında əlaqələr İran torpaqları üzərindən qurulub. O vaxt dəmir yolu vardı, SSRİ-nin hər yerini birləşdirən bu yol şəbəkəsi ilə gələn qatarlar Azərbaycanın Zəngilan rayonundan Ermənistan ərazisinə, oradan Naxçıvana gedirdi. Naxçıvan ərazisində - Culfadan bu yol İrana da birləşirdi. Əlbəttə ki, İran dəvət alsa məmnuniyyətlə bu dəhlizin yaradılmasında iştirak edə bilər. Bu yerdə qeyd edim ki, İranın yol, tunel tikintisi işlərində çox böyük təcrübəsi var və yeni dəhlizin tikintisində töhfəsini verə bilər. Daşımaçılıq baxımından isə, bu dəhliz daha çox Türkiyəyə fayda verəcək. Bəzi daşımalarda həm məsafə qısalacaq, həm də dolayısı ilə maliyyəti enəcək. Eyni zamanda, İran ərazisi də daşımalardan kənarda qalmayacaq, cənub və cənub-şərq daşımaları İran torpaqlarından keçir. Ümumiyyətlə, bütün bu layihələrin gələcəyini və faydasını əvvəlcədən hesablamaq lazımdır, xalqların mənfəəti naminə bütün proqramlardan maksimum yararlanmaq lazımdır.

*✍ Vüsal Tağıbəyli*

## XƏBƏR LENTİ

### Sahibkarlara ayrılan kreditin məbləği açıqlandı



**Elektron Kredit Platforması vasitəsilə 3300-dən çox müraciət qeydə alınıb. Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Onun sözlərinə görə, 529 müraciət üzrə 169 mln dövlət zəmanətli kredit ayrılıb:**

"Sahibkarların dövlət zəmanətli krediti asan və şəffaf əldə etməsi üçün yaradılmış Elektron Kredit Platforması effektiv vasitədir. Ötən il bu platformada 949 mln həcmdə 3300-dən çox müraciət qeydə alınıb. 529 müraciət üzrə 169 mln dövlət zəmanətli kredit ayrılıb".

### Ezamiyyə xərclərinin 1 günlük norması

**Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 90,0 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 70,0 manat, respublika tabeli digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 65,0 manat müəyyən edilib. Bu, Nazirlər Kabinetinin "Ezamiyyə xərclərinin normaları haqqında" qərarına edilən müvafiq dəyişiklikdə əksinitapıb.**

Qərara əsasən, Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin müəyyən edilmiş 1 günlük normasının 80 faizini mehmanxana xərcləri təşkil edir. Əvvəlki qərarda nəzərdə tutulan Azərbaycan Respublikasının ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda, ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizinin ödənilməsi haqda maddə ləğv olunur. Bundan sonra mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər olmadığı halda hesablamalar yuxarıdaki qaydada həyata keçəcək.

### Əmək kitabçaları dövriyyədən çıxarılır

**2020-ci ildə biz əmək münasibətləri və məşğulluq alt sisteminin yaradılmasına başladıq. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli deyib.**

Bildirib ki, bu sistem ölkənin həm əmək qanunvericiliyinin, həm məşğulluq siyasətinin, həm də kitab inzibatçılığının böyük ölçüdə elektronlaşdırılmasına gətirib çıxaracaq: "Bu sistem bizə imkan verəcək ki, mərhələli şəkildə kağız əmək müqavilələrini ləğv edək, eyni zamanda əmək kitabçalarının dövriyədən çıxarılmasını həyata keçirək. Bundan əlavə ezamiyyə vərəqələrini, kağız üzərində əmirləri, ştat cədvəllərini, digər kağız daşıyıcılarını ləğv edərək elektron müstəviyə çekməyi nəzərdə tuturuq".

### Şuşa və Hadrutla bağlı topoqrafik xəritə hazırlanır

**"İşğaldan azad olunan ərazilərdə monitorinqlər üçün ən müasir cihazlardan ibarət səyyar laboratoriya əldə olunub".** Bunu işğaldan azad olunmuş ərazilərdə ekoloji durum, görülmüş və görüləcək işlərlə bağlı mətbuat konfransında Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev deyib. O bildirib ki, Şuşa və Hadrutla bağlı topoqrafik xəritə hazırlanır. Növbəti mərhələdə digər ərazilərlə bağlı da topoqrafik xəritələr yaradılacaq.

### Mərkəzi Bankın yeni binası...



**Azərbaycan Mərkəzi Bankı (AMB) yeni binanı öz hesabına tikəcək. Bu barədə faiz dəhlizinin parametrlərinə dair onlayn mətbuat konfransında çıxış edən AMB-nin sədri Elman Rüstəmov deyib.**

Onun sözlərinə görə, Mərkəzi Bank son 3 ildə dövlət büdcəsinə 7,8 mlrd. manat vəsait köçürüb, 2021-ci ildə isə 256 mln. manat köçürməyi nəzərdə tutur. Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankı yeni inzibati binasının tikintisinə 218 mln. avro yönəldəcək. Bina Türkiyənin "Tekfen Holding" şirkəti tərəfində inşa ediləcək. Tikinti işləri 5 ilədək müddəti əhatə edəcək.

### "National Geographic"dən Ağdam paylaşımı



**Vaxtilə 40 min nəfər əhalisi olmuş və bu yaxınlarda Azərbaycan tərəfindən azad edilmiş Ağdam şəhərində təxminən otuz illik erməni işğalından sonra yalnız dağıntılar qalıb. Bu barədə "National Geographic" jurnalının "Instagram" səhifəsindəki paylaşımında deyilir.**

Qeyd olunub ki, 1993-cü ildə Ağdam işğal ediləndən sonra yalnız məscid binası bütöv qalıb, digər bütün bina və tikililər dağıdılıb. Ötən ilin sentyabrında başlamış və 44 gün davam etmiş müharibə nəticəsində Azərbaycan 1990-cı illərdə itirdiyi ərazilərin böyük hissəsini azad edib.

# Ermənistan altıtərəfli platformaya qatılmasa...

## Siyasət

**Azərbaycan Ordusunun 44 günlük əks-hücum əməliyyatı ilə 30 ildir Ermənistan tərəfindən işğal edilmiş torpaqları azad etməsindən sonra, Güney Qafqazda və əslində, bütün regionda yeni siyasi ab-hava yaranıb. Azərbaycanın şanlı qələbəsi sonrası, Ermənistana işğal siyasətindən birdəfəlik əl çəkərək, regionun sürətli inkişafı üçün hazırlanan altıtərəfli platformada təmsil olunma fürsəti verilib.**

Əgər Ermənistan şərtlər daxilində bu platformada təmsil olunarsa, Rusiyanın və Qərb dünyasının təsirindən çıxacaq, iflic olmuş iqtisadiyyatını dirçəldəcək, insanlarının sosial imkanları genişlənəcək və sair.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycanın dövlət başçısı İlham Əliyevin Rusiya, Türkiyə, Azərbaycan, İran, Gürcüstan və qəbul edəcəyi təqdirdə, Ermənistandan ibarət yaradılması nəzərdə tutulan "6 tərəfli platforma" çağırışına bölgə ölkələrindən dəstək gəlməkdədir. Xüsusilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Üzərində çalışdığımız 6 tərəfli platforma hər kəsə qazan-qazan imkanı yaradacaq bir təşəbbüsdür. Ermənistan da bu prosesə qatılarsa və əlbəttə ki, sülhməramlı səylərini artırarsa, Türkiyə - Ermənistan əlaqələrində də yeni səhifə açılar. Yeni imkanlar yarandığı təqdirdə, şübhəsiz ki, Ermənistanın qazancı da ciddi şəkildə artacaq" sözləri regional diplomatik səyləri artırıb.

■ **Ankara Sosial Elmlər Universitetinin professoru Mühittin Ataman bildirib ki, coğrafi mövqeyinə görə mərkəzdə yerləşən Türkiyə və Azərbaycanın Dağlıq Qarabağ zəfərindən sonra Qafqaz bölgəsində rolları da artıb.**

"Türkiyə və Azərbaycan, Gürcüstan və İranın da daxil olduğu bəzi mexanizmlər qurub. Türkiyə ilə Azərbaycan arasında istər siyasi, istər təhlükəsizlik, istərsə də iqtisadi sahədə qardaş münasibətləri hökm sürür. Bölgədə dənizə çıxışı olmayan Ermənistanın da altıtərəfli platformaya daxil olması lazımdır. Əks təqdirdə itirən yalnız özü olacaq", - M.Ataman deyir.



**Mühittin Ataman,**
Ankara Sosial Elmlər Universitetinin professoru

> *Diaspor Ermənistan dövlətini öz hədəfləri uğrunda siyasət yürütməyə məcbur etməkdədir*

Dünyaya səpələnmiş varlı erməni diasporunun 30 ildir Ermənistanı zərər içində saxladığını bildirən professor qeyd edir ki, əslində, diaspor Ermənistan dövlətini öz hədəfləri uğrunda siyasət yürütməyə məcbur etməkdədir. Qərbdəki erməni diasporu məhz Ermənistanın acıları üzərində özünə nüfuz və sərvət qazanır.

"Ermənistan daha çox İsrailə bənzəyir. Fikrimcə, ümumilikdə Qarabağ da Fələstin kimi işğal altındaydı. Ən vacibi isə Ermənistan da İsrail kimi sərhədləri bəlli olmayan dövlətdir və üstəlik, bu məsələdə israrlarını davam etdirir. Yəni həm Azərbaycandan, həm də Türkiyədən torpaq tələb edirmiş kimi görüntü yaradır. Bu halda isə özünü de-fakto müharibə təhlükəsi altına salır və bu da regionun inkişafına maneə yaradacaq", - deyən Atamanın fikrincə, Ermənistanın altıtərəfli platformanın bir parçası olmasının iki şərti var: birincisi işğal etdiyi torpaqlardan çıxması, digəri isə sərhədlərin rəsmən tanıması. Türkiyə və Azərbaycanın bölgədə üstün mövqedə olduğunu və Ermənistanın bu iki şərti qəbul etdiyi təqdirdə, həm qərbində, həm də şərqindəki iki böyük qonşusu ilə əlaqələrinin normallaşacağına diqqət çəkən Ataman fikirlərini belə əsaslandırıb: "Əgər Ermənistan altıtərəfli platformaya qatılarsa, onsuz da sıx olan Azərbaycan-Türkiyə əlaqələrindən bəhərlənən bir dövlətə çevriləcək. Birmənalı şəkildə iqtisadi mənfəəti artacaq, insanların sosial rifahı yüksələcək. Eyni zamanda bütün regional layihələrdə iştirak edə biləcək. Türkiyə və Azərbaycanla əlaqələri düzələcəyi təqdirdə, Ermənistanın nəinki Qərbdən asılılığı azalacaq, hətta Rusiyanın alternativinin olduğunu da düşünə biləcək". Ataman qeyd edib ki, indiyədək İrəvanı istismar edən Qərb onu Türkiyə, Rusiya, Azərbaycan və sair bölgə ölkələrinə qarşı alət olaraq istifadə edir.

■ **Egey Universiteti Beynəlxalq Münasibətlər fakültəsinin professoru Aydın İbrahimov bu qənaətdədir ki, Qarabağ zəfərindən sonra Qafqazda yeni bir səhifə açılıb və bölgənin tarixi fərqli bir istiqamətə yönəlib.** Ermənistanın altıtərəfli platformaya qatılmaqdan başqa yolu qalmadığını deyən A.İbrahimova görə, bu layihəyə üzv olan dövlətlər qazan-qazan prinsipi üzrə özlərini inkişaf etdirmək imkanı əldə edəcəklər. Əgər Ermənistan bu layihəyə qatılarsa, Türkiyə və Azərbaycanla əlaqələrini inkişaf etdirərək, regionda və dünyada mövqeyini yaxşılaşdıra biləcək.

Rusiya Xarici İşlər Nazirliyində bu yaxınlarda üçtərəfli görüşün (Rusiya, Ermənistan və Azərbaycan) keçiriləcəyini xatırladan İbrahimova görə, əslində bu görüş Naxçıvan-Bakı və Rusiya-Ermənistan dəmir yolunun açılması ilə bağlı olacaq. "Ermənistanın Baş naziri Nikol Paşinyan bu görüşə isti yanaşsa da, erməni müxalifəti qarşı çıxır. Müxaliflər və təbii ki, xaricdəki erməni lobbisi Türkiyə ilə qurulan bütün anlaşmalara qarşı çıxır. Qərb ölkələri Ermənistanı həm Azərbaycana, həm Rusiyaya, həm də Türkiyəyə qarşı qaldırmağa çalışacaqlar", - deyən professor A.İbrahimov əlavə edir ki, Ermənistanın sərhəd məsələsində geri addım atması, təcavüzkar siyasətindən vaz keçməməsi və Azərbaycanın ərazi bütövlüyünü tanımaması təqdirində, bu platformaya qatılması çətin görünür. Onun fikrincə, Türkiyə və Azərbaycan, təcavüzkar siyasətindən imtina etmədiyi müddətdə Ermənistanla münasibətləri yaxşılaşdırmayacaq.



**Aydın İbrahimov,**
Egey Universiteti Beynəlxalq Münasibətlər fakültəsinin professoru

> *Türkiyə və Azərbaycan, təcavüzkar siyasətindən imtina etmədiyi müddətdə, Ermənistanla münasibətləri yaxşılaşdırmayacaq*

*✍ Vüsal Tağıbəyli*

İqtisadiyyat

# Dövlət satınalmalarında yenilik

**Hər il dünyada dövlət vəsaitləri hesabına həyata keçirilən satınalmaların, təxminən, 20-25 faizi korrupsiyanın predmetinə çevrilir**




*Azərbaycanda tenderlərin keçirilməsi qaydasının sadələşdirilməsi gözlənilir. Məqsəd Qarabağın yenidənqurulması prosesinə yerli investorlarla yanaşı, xarici investorların da marağının artırılmasıdır. Məlumatlara görə, bu məsələdə müxtəlif ölkələrin təcrübəsi araşdırılıb və qardaş Türkiyənin tender sahəsindəki təcrübəsi Azərbaycan üçün məqbul sayılıb. Bəs, görəsən, Türkiyədə dövlət satınalmaları necə təşkil olunur? Azərbaycanda bu sahədə şəffaflığın təmin olunması üçün hansı addımlar atılmalıdır?*

### Türkiyənin tender təcrübəsi

**Qeyd edək ki, Türkiyədə dövlət satınalamaları yalnız 3 üsulla - açıq tender, bəlli təchizatçılar arasında müsabiqə və sövdələmə üsulu ilə həyata keçirilə bilər.** Satınalma barədə elanlar, zəruri sənədlərin bəyan edilməsi, hazırlanması və təqdim edilməsi, iştirak və ixtisasla bağlı sənədlərin yayımlanması, satınalma prosesinin aparılması və yekunlaşdırılması,



Fikrət Yusifov, keçmiş maliyyə naziri, iqtisad elmləri doktoru, professor

nəticələrin təsdiqlənməsi və yekun tender qərarlarının elan edilməsi, müqavilənin imzalanması əlaqəli bütün mərhələlər Elektron Dövlət Satınalma Platforması vasitəsilə həyata keçirilir. Türkiyədə dövlət satınalmaları üzrə məsul qurumun internet resursu **https://www.ihale.gov.tr/** saytıdır. Dövlət adından gedən bütün satınalmaların statistik bazası, qanunvericilik, iştirakçıların müraciət və şikayətlərlə bağlı əlaqə və əksəlaqə imkanları, qurumun hesabatları, satınlamada iştirakına məhdudiyyət və qadağa qoyulmuş subyektlərin siyahısı və s. kimi bütün zəruri informasiyalar, materiallar bu sayt üzərindən həyata keçilir. Lakin elektron satınalmanın təşkili avtonom rejimdə çalışan EKAP platformasının internet resursu - www.ekap.kik.gov.tr bazası vasitəsilə reallaşdırılır. Elektron satınalma portalının həm iştirakçılar, həm də digər maraqlı tərəflər (vətəndaş cəmiyyəti və media təmsilçiləri, mövzu ilə bağlı müstəqil araşdırmaçılar və s.) təqdim etdiyi əsas imkanlardan biri “Satınalma axtarış” sistemidir. Axtarış sistemi peşəkar tələblərə uyğundur və istifadəçilər üçün kifayət qədər sadə və asan axtarış imkanı yaradır.

### İstənilən pozitiv təcrübənin istifadəsi müsbət haldır, amma...

■ **Mövzu ilə bağlı hafta.az-a danışan keçmiş maliyyə naziri, iqtisad elmləri doktoru, professor Fikrət Yusifov bildirib ki, ilk növbədə tenderlərin keçirilməsində şəffaflıq təmin olunmalıdır:** “Həm tenderlərin təşkili, həm də tenderlərdə iştirak kifayət qədər şəffaflaşdırılmalıdır. Yəni, bu prosesdə hər kəsin bərabərhüquqlu iştirakı təmin olunmalıdır. Bizdə bu sahədə neqativ hallar kifayət qədərdir. Ona görə də biz başqa ölkələrdə, o cümlədən qardaş Türkiyədə mövcud olan modeldən danışırıq. Əslində bu prosesi biz özümüz də rahat şəkildə qura bilərik. Burada çətin heç nə yoxdur. Sadəcə dediyim kimi, şəffaflığı təmin etməliyik. Elə bir mexanizm qurmalıyıq ki, neqativ olacağı təqdirdə, dərhal ortaya çıxmalıdır. Bəzən dövlət qurumları tenderləri özlərinə yaxın olan şirkətlərə verirlər. Bu mənim səsləndirdiyim yeni bir fikir deyildir. Bununla bağlı kifayət qədər fikirlər səsləndirilib. Təəssüf ki, bəzi təşkilatlar öz “ənənələrindən” əl çəkmirlər. Tender nəyə görə keçirilir? Ona görə keçirilir ki, səmərəli iş ortaya qoya biləcək namizəd müəyyənləşdirilsin. Tender ona görə keçirilmir ki, kimlərsə daha çox qazansın”.

Türkiyənin tender təcrübəsinin Azərbaycanda tətbiqi məsələsinə gəlincə, professor bildirib ki, istənilən pozitiv təcrübənin istifadə olunması müsbət haldır: “Bu təcrübə istər Türkiyə olsun, istər İtaliya heç bir fərqi yoxdur. Pozitiv nə varsa, istifadə edək. Əsas məqsəd prosesin şəffaf şəkildə keçirilməsi olmalıdır. Əgər bunu təmin edə bilməyəcəyiksə, tətbiq etdiyimiz pozitiv təcrübələrin də heç bir effekti olmayacaq”.

### Satınalma prosesində hər 4 manatdan 1-i korrupsiya predmetidir

■ **Məsələyə münasibət bildirən iqtisadçı ekspert Rəşad Həsənov də hesab edir ki, Azərbaycanda tender prosesinin bir neçə aspektdən təkmilləşdirilməsinə ehtiyac var: “Birincisi, məlumat əlçatanlığı təmin edilməlidir.** Yəni dünyada il ərzində götürəndə, təxminən, 10-15 trilyon dollar dəyərində büdcə xərcləmələri satınalmalar yolu ilə həyata keçirilir. Azərbaycanda da bu göstərici təxminən bəzi illərdə 50 faizə qədər bəzi illərdə isə 30-35 faizə qədər dəyişir. Yəni, kifayət qədər böyük bir rəqəmlərdən söhbət gedir. Bu vəsaitlərin əsl sahibi xalqdır və onların istifadəsi aidiyyəti qurumlar tərəfindən ictimailəşdirilməlidir. Bizdə adətən deyirlər ki, büdcə məlumatları ictimailəşdirilir. Əslində isə ictimailəşdirilən məlumatlar büdcə sənədini tam əhatə etmir. Məlumdur ki, büdcə sənədi 1000-1500 səhifə olur. Onun təxminən 50 səhifəni əhatə edən makro göstəriciləri çıxarılaraq ictimailəşdirilir. Bu baxımdan biz bütün sferalarda fəaliyyət göstərən dövlət təşkilatlarının satınalmalarını, onlara ayrılan vəsaiti, həmin vəsaitin məqsədini görə bilmirik. Ona görə də həm makro, həm də mikro təşkilatlara bağlı məlumatların ictimailəşdirilməsinə ehtiyac var. İkincisi, tender prosesində iştirakçılıq imkanlarını məhdudlaşdıran bürokratik problemlər aradan qaldırılmalıdır. Yəni, proses tam şəkildə liberallaşmalıdır. Etiraf edək ki, bizdə tenderlərdə daha çox yerli şirkətlərin iştirakına, mikro sahibkalara üstünlük verilməsi kimi yanaşma var. Bu yanaşmaların hamısı nöqsanlı yanaşmalardır və indiyə qədər də effekt verməyib. Ona görə biz liberal mühüt yaratmalıyıq ki, biznes subyektləri də rəqabətli şəraitdə fəaliyyət göstərmək qabiliyyətini formalaşdıra bilsin. Əks halda biz orta uzunmüddətli dövrdə heç bir rəqabətli iştirakçı iqtisadi subyekt yarada bilməyəcəyik. Üçüncü məsələ qaydalara əməl edilməsi ilə bağlıdır. Məsələn, “Satınalmalar haqqında” qanunda şirkətin qiymətləndirilməsi meyarları var. Bu meyarlarda göstərilir ki, son bir il ərzində həmin şirkətin dövlətə vergi və fiskal borcu olmamalıdır. Yəni, burada 1 il aydın şəkildə qeyd edildiyi təqdirdə, biz tender proseslərində başqa mənzərənin şahidi oluruq. Maraqlıdır ki, son bir həftədə yaradılan, heç bir təcrübəsi olmayan şirkətlər tenderlərin qalibi olur.

> “Tender ona görə keçirilmir ki, kimlərsə daha çox qazansın

> “Heç bir təcrübəsi olmayan şirkətlər tenderlərin qalibi olur

Düzdür, bu məsələdə bəzi istisnalar ola bilər. Dünya xüsusilə informasiya texnologiyaları sahəsində çox sürətlə inkişaf edir. Bəzi sahələr var ki, yeniliklər bizə gec gəlib çatır. Ola bilsin ki, həmin sahədə bizdə şirkət yoxdur və onun xidmətini almaq məcburiyyətində qalmışıq. Amma əksər ənənəvi sahələrdə də bu problem mövcuddur. Tutaq ki, dəftərxana ləvazimatı ilə bağlı keçirilən tenderlərdə də bəzən bir həftəlik şirkətləri görə bilirik. Bu doğru deyil. Deməli, əslində dövlət satınalmalarına nəzarəti həyata keçirən qurumlar öz işini görmürlər. Əgər onlar öz işlərini düzgün görmüş olsalardı o zaman “Azərxalça”nın idarəedicisi 1,3 milyona ala biləcəyi avadanlığı 10, 6 milyona 8 dəfə bahasına almazdı. Əslində burada qruplaşmış cinayət əməllərindən, maraq-



Rəşad Həsənov, iqtisadçı ekspert

lardan söhbət gedir. Dünyada hər il dövlət vəsaitləri hesabına həyata keçirilən satınalmaların, təxminən, 20-25 faizi korrupsiyanın predmetinə çevrilir. Əgər Azərbaycan dünya ortalamalarına uyğun gələrsə, bu o deməkdir ki, hər 4 manatdan 1-i korrupsiya predmetidir. Əslində Azərbaycanda rəqəmlər daha ciddidir. Yəni, bu istiqamətdə də problemin aradan qaldırılmasına ehtiyac var. Bu məsələyə ictimai nəzarət imkanı yaradılmalıdır”.

### Məlumatların detallı şəkildə ictimailəşdirilməsinə ehtiyac var

**Ekspert vurğulayıb ki, dövlət satınalmaları ilə bağlı bütün məlumatlar detallı şəkildə ictimailəşdirilməlidir. Bizdə satınalmalarla bağlı portal fəaliyyət göstərir.** Orada müəyyən məlumatlar yerləşdirilir. Amma bu məlumatlar tutaq ki, hansı şirkət tenderdə iştirak etdi, tenderin məbləği və s. ibarət olur. Əslində bu məlumatlar hansı şirkətlər tenderə qatıldı, hansı şirkətlərin təkliflindən nə üçün imtina verildi, hansı şirkətin təklifi nə üçün qəbul edildi və s. kimi əhatəli verilməlidir. Belə olan təqdirdə, aidiyyəti qurumlar da öz fəaliyyətlərində daha ehtiyatlı davranmaq məcburiyyətində qalacaqlar”.

Qarabağda yenidənqurma işləri ilə bağlı elan olunacaq tikinti tenderlərində Türkiyə təcrübəsindən istifadə edilərəyinə gəlincə, ekspert bu modeli nöqsanlı sayıb: “Əgər Türkiyə modeli nəzərdə tutulursa, böyük ehtimalla Azərbaycana dəvət mexanizmini gətirmək istəyirlər. Dəvət mexanizmi son illərdə Türkiyədə satınalma prosesinin şəffaflığını məhv edən mexanizmdir. Bu çağırışlarda əsas iştirakçı Türkiyənin 5-6 şirkəti olur, yəni bu mexanizm nöqsanlıdır. Əksinə, dünya daha çox tenderləşməyə, müsabiqələrə, rəqabətə doğru mövqe ortaya qoyur. Ola bilər ki, bizdə Türkiyə mexanizmin hansısa elementi tətbiq edilsin. Bütövlükdə bu mexanizmin tətbiqi dövlət satınalmaları sahəsində mövcud nöqsanları daha da dərinləşdirə bilər”.

✍ Sevinc

TƏRSMÜTƏNASİB

**COVID-19 pandemiya bəlası insan və cəmiyyətin həyatında çox qadağalar qoydu. Virus təhlükəsi elin toy kimi adətlərinin də bir müddət təxirə salınmasına rəvac verib. Karantin şərtləri yumşaldığı bir vaxtda gündəmin əsasə müzakirə mövzusuna çevrilən “Toyların bərpası məsələsi necə həll olunmalıdır?” sualına ictimaiyyət birmənalı yanaşmır.**

# Toylar

## başlasın,



Razi Nurullayev, millət vəkili

Əhalinin toylarla bağlı həssaslığına diqqət verməK lazımdır. Toyların keçirilməsi ilə bağlı qərar Operativ Qərargah və Nazirlər Kabinetinin ixtiyarında olan məsələ olsa da, insanlar narahatdır. Deyirlər ki, yaşlaşmışam, oğlumun, nəvəmin toyunu görmək istəyirəm. Bu cür insanları da anlayışla qarşılamaq lazımdır. Ümid edirəm, Operativ Qərargah bununla bağlı yaxınlarda müsbət qərar verəcək.

Əgər risk qrupuna daxil olan insanlar tez bir zamanda vaksinasiya olunacaqlarsa, ola bilər ki, 1 aydan sonra toyların keçirilməsinə icazə verilsin. Bu məsələ istənilən halda öz həllini tapacaq. Yenə də təhlükəni nəzərə almaq lazımdır. Bunun üçün peyvəndlənməni sürətləndirmək lazımdır. Ola bilər ki, toylara 50 nəfərin iştirakı olmaqla icazə verilsin. Qarşıdan isti aylar gəlir və toyları açıq havada da keçirmək olar. Eləcə də üstüaçıq məkanlarda, ventilyasiya sistemi işlətməklə buna şərait yaratmaq olar.

## başlamasın



Musa Quliyev, millət vəkili

Toyların keçirilməsi ilə bağlı qadağa uzadılmalıdır. Vaksinasiya ilkin nəticələrini verəndən sonra bu məsələyə baxılsa daha yaxşı olar. Ümumiyyətlə, hesab edirəm ki, toy və yas mərasimlərinin formasının dəyişməsinin vaxtı gəlib çatıb. Pandemiya da sübut elədi ki, toylar az insanların iştirakı ilə keçirilsə, daha yaxşı olar. Əvvəlki kimi 500, bəlkə də 1 000 adamın oturduğu və 7-8 saat davam edən toylar yığışdırılmalıdır. Yaxud əvvəllər baxırdıq ki, toylar yeməklərin bolluğu ilə müşayiət olunurdu. Aamma o ərzaqların 50 faizindən istifadə edilmir.

Müğənnilərin toylarda oxumaq üçün təklif etdiyi fantastik qiymətlər götürülməlidir. Toy sahibləri illərlə o krediti verib qurtara bilmirlər. İndiki dövrdə qadağaları aradan qaldırmaq lazım deyil. Pandemiyadan sonra da toy mərasimlərini ailə, dostların şənliyinə çevirmək lazımdır. Toyları gələcəkdə 50-60 nəfərin iştirakı ilə 3 saatın içərisində yekunlaşan bir məclisə çevirmək olar. Burada əsas məsələ özünü kimsə göstərmək deyil, gənclərə xoşbəxtlik arzulamaqdır. Əslində, toylarda aşırı israfçılığa yol verməK vəhşi hissələrin göstəricisidir.

✍ Tahirə Qafarlı

Sosial

*Son bir neçə gündə ölkədə intihar hallarının sayı kəskin şəkildə artıb. Belə ki, yanvar ayının 24-ü, Nərimanov rayonu, Heydər Əliyev küçəsində, 1991-ci il təvəllüdlü Qurbanova Sevda Şikar qızı özünü yaşadığı binanın 18-ci mərtəbəsindən atıb. Yanvarın 13-ü, Neftçala rayonunun Yuxarı Qaramanlı kəndində, 1956-cı il təvəllüdlü Abıyev Asim Mərif oğlu yaşadığı evin həyətində yerləşən tövlədə özünü asıb.*



# Gündəmi sarsıdan intihar hadisələri

Ondan iki gün öncə isə, Sumqayıt şəhər, 9-cu mikrorayon sakini, 1950-ci il təvəllüdlü Mehdiyev Tofiq Cəmil oğlu yaşadığı mənzildə özünü asıb. Digər bir hadisə isə, Hərbi vəzifəli əsgər Yunis Mənsurov intiharıdır.

Son zamanlar baş verən intihar hallarının artması ortaya çoxlu sayda sual çıxarır. Buna nələr səbəb ola bilər? Axı hansı problem insan həyatından daha vacibdir? Səbəb olaraq gətirilən ilkin məqam maliyyə sıxıntıları və ailədaxili problemlər olsa da, indi buna yenisi də əlavə olunub. Təbii ki, pandemiya...

Hafta.az məsələ ilə bağlı mütəxəssislərə müraciət etdi. Çıxış yolları birgə müzakirə olundu.

■ **İlk olaraq sosioloq Əhməd Qəşəmoğlu mövzuya münasibət bildirdi. Onun sözlərinə görə, intihar hadisələri əsasən gərginliklə bağlıdır:** “Demək olmaz k, buna yalnız bir fakt təsir edir. Sadəcə olaraq aydınlaşdırmalıyıq ki, gərginliyin əsas səbəbi hansıdır. İnsanlar belə vaxtlarda dərhal deyirlər ki, intiharlar iqtisadi vəziyyətin pisliyi ilə bağlıdır. Bu, səhv yanaşmadır. Ölkəmizdə, eləcə də xaricdə tarixin müxtəlif vaxtlarında çox ağır iqtisadi vəziyyətdə olan insanlar olub. Buna görə də bütün səbəbləri nəzərdən keçirmədən dəqiq söz demək olmaz.

Özünəqəsdə ən güclü təsir edən məqam sabah haqqında təsəvvürdür. İnsanın sabah barəsində təsəvvürləri aydın olanda o özünü öldürmür. Bilir ki, sabah və yaxud bir il sonra onu nələr gözləyir. Beləcə, həmin insan düşüncələrində gələcəklə bağlı parlaq fikirlər formalaşdırır. Sosioloq deyir ki, insanın davranışına təsir edən **4 mühüm amil var.** Bu amillərdən birincisi şəxsin öz fərdi xüsusiyyətləridir.

Hər kəs intihar etmir. Yalnız müəyyən qisim insanlarda buna meyillilik var: **“Digər faktor** insanların üstünlük verdiyi dəyərlərdir. Belə şəxslər dini, elmi, yaxud ədəbi əsərlərə meyilli olur, ondan zövq alır. O zaman yüksək olur ki, insan ancaq maddi dəyərlərə üstünlük versin. Daim bir yarışın içində olub, kimlərdənsə üstün olmağa can atır.

**Üçüncü** amil isə mühitdir. Ətrafda baş verən siyasi, iqtisadi, sosial məsələr şəxsin davranışına birbaşa təsir edir. **Dördüncü** mühüm məsələlərdən biri isə informasiyadır. Televizorda yayımlanan kriminal hadisələr, yaxud teleseriallarda nümayiş edilən bahalı həyat tərzi insan psixologiyasına təsir edir”.

Mütəxəssis ölkəmizdə son vaxtlar gərginliyi artıran məqamlardan ən başlıcasının koronavirus olduğunu söylədi.

■ **Daha sonra mövzu ilə bağlı psixoloq Şahin Əliyevin də fikirlərini öyrəndik. O da bildirdi ki, hazırda intiharların artmasına təsir edən ən başlıca məqam pandemiyadır:** “Mən praktiki olaraq öz gördüklərimdən bunu deyə bilərəm ki, insanların həyatında pandemiya ilə bağlı həddindən artıq dəyişiklik yaranıb, rutinlər pozulub. Bu da ilk növbədə, şok effekti - postravma yaradır.

Postravma da iki formada özünü göstərir. Ya daha sonra insanlarda təşviş pozuntusu yarana bilir ya da depressiya. Kim də ki təşviş pozuntusu yaranır, bu şəxslər daha çox başlarına pis hadisə gələ bilər deyə qorxmağa başlayırlar. Adətən, özlərinin və yaxınlarının ölə biləcəyini düşünüb narahatlıq keçirirlər.

Depressiyaya düşən adamda isə həyat eşqi azalır, onlar öz kimliklərini sorğulamağa başlayırlar. “Mən bu həyatda niyə varam?”, “Mən kimə lazımam?” kimi suallar yaranır.

Bu zaman da həmin şəxslər tək çıxış yolunu da intiharda görürlər. Onlar intiharı bu həyatdan, əzab-əziyyətdən qurtulmağın yolu kimi görürlər”.

Psixoloqun sözlərinə görə, intihar edən şəxs daha öncə ətrafına bununla bağlı siqnallar verir. Sadəcə olaraq, cəmiyyətimizdə maarifləndirmə detalları ilə getmədiyi üçün insanlar bunu hiss etmir:

“Həyat eşqinin azalması, yuxu və qida rejiminin pozulması intihar edəcək adamın öncədən yaxın çevrəsinə verdiyi ilk mesajlardır. Bundan başqa, əgər həmin şəxs qadındırsa, artıq özünə baxmamağa başlayır, kişidirsə işə getmək istəmir. Yaxud evdəkilərlə maraqlanmır, yaxşı olardı ki, belə şəxslər mütəxəssislərə müraciət etsinlər.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, hər il 800 000 nəfər intihar edərək həyatına son qoyur. Bundan 20 dəfə çox isə sonu ölümlə nəticələnməyən intihara cəhdlərdir.

✍ Banu

**Reportaj**

# Muzeylər karantindən sonra...

***Postpandemiya günlərində digər mədəniyyət mərkəzləri kimi muzeylər də fəaliyyətlərini dayandırmışdı. Beş gündür ki, onlar öz qapılarını ziyarətçilərinin üzünə açıb. Bəs görəsən, əvvəlki dövrlərə nisbətən hazırda muzeyə gələn ziyarətçilərin sayında nə kimi dəyişiklik var? Xairici turistlərin yoxluğunda bu mədəniyyət ocaqları yerli ziyarətçiləri cəlb etmək üçün hansı addımlar atır? Hafta.az bu və digər suallara aydınlıq gətirmək üçün üz tutdu Azərbaycan Milli Xalça Muzeyinə.***

Əvvəlcə qeyd edək ki, binanın girişində virus təhlükəsi nəzərə alınaraq, bura gələnlərin hərarəti ölçülür. Yoxlanışdan keçib muzeyə daxil oluruq. Muzeydə ziyarətçilər 10 nəfərlik qruplarla qəbul edilir.

## Muzeyə giriş qiyməti

**Ekskursiyamızda bizə Muzeyin Mətbuat Xidmətinin Katibi Ülvinə Fərzəliyeva bələdçilik etdi. O söylədi ki, Azərbaycan Milli Xalça Muzeyi ölkənin ən çox ziyarətçi qəbul edən muzeyidir.** Muzeyin kolleksiyasında 10000-dən artıq eksponat var. Yanvarın 25-dən bu günə, təxminən, 500 nəfərə yaxın ziyarətçi gəlib. Giriş bileti 6 yaşa qədər uşaqlar üçün ödənişsiz, şagirdlər üçün 3, 18 yaşdan yuxarı şəxslər üçün isə 7 manat təşkil edir. Pandemiyadan öncə də qiymətlər elə eyni idi.

Daha sonra, Ü.Fərzəliyeva ilə birlikdə muzeylə tanış oluruq. Onun sözlərinə görə, muzeyin birinci mərtəbəsində xovsuz, ikinci mərtəbədə xovlu, üçüncü mərtəbəsində isə müasir xalçalar nümayiş edilir. Üçüncü mərtəbədə nümayiş edilənlər əsasən müəllif əsərləridir. Burada muzeyin yaradıcısı Lətif Kərimovun müəllifi olduğu eskizlər əsasında hazırlanmış xalçalar var.

Bundan başqa, Eldar Mikayılzadənin, Kamil Əliyevin əsərləri əsasında hazırlanmış xalçaları görmək mümkündür.





## Uşaqlara usta dərslər keçirilir

**Qurumun əməkdaşı onu da qeyd etdi ki, muzeyin məktəb və bağçalarla daimi əməkldaşlığını təmin etmək üçün uşaq şöbəsi var. Azərbaycan Milli Xalça Muzeyninin Avrasiya məktəbi və Avropa Liseyi ilə birgə əməkdaşlığı çərçivəsində bura 3 gün ərzində xeyli sayda şagird gəlib.** Onlar həm muzeylə tanış oldu, həm də usta dərslərində iştirak etdilər: “Muzeyə ziyarətçi cəlb etmək üçün əvvəlkindən fərqli olaraq, indi burada hər gün uşaqlara usta dərslər keçirilir. Çalışırıq ki, usta dərslərimiz milli-mənəvi dəyərlərimiz üzərində qurulmuş olsun. Şəbbənin toxunması, milli ornamentlərin rənglənməsi, milli geyimlərin hazırlanması həyata keçirilir. Çalışırıq ki, proses uşaqlar üçün əyləncəli olsun. Dərslərdə onlara lazım olan bütün ləvazimatlar muzey tərəfindən verilir. Hazırlanan materialı da balacalar özləri ilə aparırlar. Bundan başqa uşaqlar üçün hər həftənin 4-cü günü kukla tamaşalarımız olur. “Şəngülüm, Şüngülüm, Məngülüm”, “Cırtdan” və “Məlikməmməd” nağılları tamaşaya qoyulur. Yenə də izləyicilərin hər biri sosial məsafə qaydalarına uyğun şəkildə yerləşdirilir. Həftənin 3-cü günləri isə Qarabağ otağında, 10 nəfərlik qruplar olmaqla uşaqlar üçün nağıllar oxunur. Fevralın 1-dən mayın 1-nə qədər isə uşaqlar üçün yeni layihə proqramı təşkil olunacaq. Layihə uşaqlara geyim mədəniyyətinin təbliği və öyrədilməsi məqsədilə həyata keçirilir. Üç ay ərzində marağı olan 10-18 yaşarası uşaqlara həm milli geyimlərin tarixi, həm də hazırlanması öyrədiləcək. Sonra isə onlara sertfikat veriləcək, hazırlanan geyimlərin sərgisi təşkil olunacaq”.

## Yeni layihələr

**Ülvinə xanım pandemiyadan öncə ziyarətçilərin yüksək əksəriyyətini turistlərin təşkil etdiyini söylədi.** Hazırda burada yerli ziyarətçiləri muzeyə cəlbetmə məsələsi aktualdır. Məsələ ilə bağlı müxtəlif tədbirlər görülür:

“Sərt karantin günlərində muzeyin onlayn fəaliyyəti davam edib, burada insanlara virtual turlar təşkil edilib. Bundan başqa hazırda 360 dərəcə videoturumuzu da yeniləmişik. Böyüklər üçün çalışırıq ki, mütəmadi olaraq ekspozisiyalarda dəyişikliklər edək. Doğrusu, pandemiyaya qədər də sosial şəbəkə hesablarımızdan müxtəlif paylaşımlar edirdik. Karantin dövrü ərzində artıq bütün fəaliyyətimizi onlayna daşıdıq. Onlayn sahədə uğur qazandığımıza görə, izləyicilərimizin sayı bütün dünyada artdı. Məhz bu səbəbdən də onlayn fəaliyyəti dayandırmadıq. İnstaqram üzərindən tanınmış incəsənət adamları ilə tez-tez canlı yayımlar edirik. Bu gün də Xalq rəssamı İnna Kostina ilə yayımımız baş tutacaq. Sərt karantindən sonrakı dövr üçün digər bir yeniliyimiz bələdçi tərcümə-gidlərinin yenilənməsi oldu. Əvvəllər Azərbaycan, rus, ingilis və fransız dilləri var idisə, indi bura ərəb və Ukrayna dilləri də əlavə edildi”.





## Maaşlar dövlət tərəfindən ödənilib

**Mətbuat katibi, muzeyin pandemiya ilə bağlı uzun müddət qapalı qalmasına baxmayaraq, bütün əməkdaşların maaşlarının dövlət tərəfindən ödənildiyini vurğuladı. Bundan başqa o, gələn ziyarətçilərin eksponatlara heyranlıq nümayiş etdirdiyini də dilə gətirdi.** Təbii ki, Xalça Muzeyində ziyarətçilərin ən çox marağını cəlb edən də elə xalçalardır:

“Muzeydə xalçalardan əlavə, bədii metal, tikmə, milli geyimlər də sərgilənir. Buna baxmayaraq, həm yerli, həm də xarici turistlərin marağını cəlb edən, təbii ki, xalçalardır. Ötən il Mədəniyyət Nazirliyi muzeyə 2 xalça hədiyyə edib. Onlardan biri olan “Çələbi xalçası” Şuşa filialına veriləcək. Şuşa filialı yenidən fəaliyyətə başladıqdan sonra, eksponatlar ora köçürüləcək. hazırda bununla bağlı işlər gedir”.

Qeyd edək ki, Azərbaycan Milli Xalça Muzeyində hazırda onlayn şəkildə palazın toxunması dərsləri keçirilir.

## Bəs digər muzeylər?

Azərbaycan Milli Xalça Muzeyinin zəngin tarixi eksponatları və hazırkı fəaliyyəti ilə tanış olduqdan sonra keçid aldıq digər muzeylərə.

**■ Növbəti həmsöhbətimiz Milli Azərbaycan Tarix Muzeyinin Ekspozisiya işləri üzrə direktor müavini, dosent doktor Həbibə xanım Əliyeva oldu. O, muzeyin hazırkı fəaliyyəti barədə suallarımızı cavablandırdı.**

Əvvəlcə onu qeyd edək ki, Milli Azərbaycan Tarixi Muzeyinin yerləşdiyi bina məşhur sahibkar, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin və ailəsinin yaşayış evi olub. Bakı şəhərinin baş memarı olmuş İosif Vikentyeviç Qoslavskinin (1865-1904) layihəsi əsasında inşa edilən Tağıyev sarayı Bakının ən gözəl binalarından biridir.



H.Əliyeva söylədi ki, Azərbaycan Tarix Muzeyi 2004-2007-ci illərdə təmir edildi. Daha sonra, 2018-ci ildə yenidən muzeydə təmir-bərpa işlərinə başlandı. Elə bu səbəbdən də həmin il may ayının 1-dən etibarən buraya ziyarət dayandırıldı. Yanvarın 25-dən etibarən isə muzeyin təkcə Haci Zeynalabdin Tağıyev bölməsi fəaliyyətə başlayıb.

“Düzdür, keçən müddət ərzində sərgilərimiz oldu, muzeyin Tağıyev hissəsi zaman-zaman öz fəaliyyətini bərpa etdi. Birinci və ikinci mərtəbədə isə hazırda da bərpa işləri davam edir. Yanvarın 25-dən sonra bir qədər ziyarətçi artımı hiss edilir. Yəqin ki, bu da məktəblərin bağlı olması ilə əlaqədardır. Gün ərzində 30-35 ziyarətçi gəlir. Pandemiya ilə əlaqədar onlar içəri hissə-hissə buraxılır”.

Muzey rəsmisi onu da bildirdi ki, karantindən öncə də, hazırda da buraya giriş bileti uşaqlar üçün 1 manat, böyüklər üçün 2 manat təşkil edir. Bundan başqa, pandemiya dövründə burada Böyük Vətən Müharibəsinə aid sərgi olub. “Muzey sərt karantin günlərində virtual olaraq fəaliyyətdə idi. Halhazırda isə Qarabağ müharibəsi sərgisinə hazırlaşır. Bununla bağlı eksponatlar toplanır. Çox güman ki, 1-2 aya sərgi təqdim ediləcək”.

**■ Azərbaycanın ən böyük muzeyi olan Azərbaycan Milli İncəsənət Muzeyindən isə bizə bildirildi ki, muzeyə giriş üçün biletin qiyməti böyüklərə 5, tələbələrə isə 2 manat təşkil edir.**

Qeyd edək ki, Mədəniyyət Mərkəzində 17000-dən çox eksponat saxlanılır. Muzey əməkdaşının sözlərinə görə, bura ziyarətçilərin cəlb edilməsi üçün mütəmadi olaraq sərgilər təşkil edilir. Bundan başqa sərt karantin rejimi günlərində də muzey onlayn qaydada öz fəaliyyətinə davam edib. Hazırda da ziyarətçilərin sayı əvvəlkinə nisbətən çoxdur.

**■ Azərbaycan Geologiya Muzeyinin drektoru Kəmalə İmamverdiyeva isə buraya girişin ödənişsiz olduğunu söylədi.** Buna baxmayaraq ziyarətçilər elə də çox deyil: “Hələ ki, fəaliyyətimiz təzə bərpa edilib. Bu müddət ərzində muzeyə 2 dəfə ziyarətçi gəlib - onlardan biri fərdi, digəri isə ailəsi ilə birgə. Muzeyə 5 nəfərdən artıq qrup halında girişə icazə verilmədiyi üçün məktəblilərin və tələbələrin gəlməsinə qadağa var. Bura ziyarətçilərin cəlb edilməsi üçün bir neçə məktəbyönlü addımlar atılır”. Sonda isə qeyd etmək istərdim k, muzey sosial şəbəkələrdən gördüyümüz kimi deyilmiş. Muzeylərin öz ziyarətçi kütləsi var və onlar tarixin günümüzlə qovuşduğu bu məkanda zövqlü vaxt keçirməyi çox gözəl bacarırlar.

*Banu*

# Uşaq Paralimpiya Komitəsi ötən il reallaşdırdığı təşəbbüsləri açıqlayıb

R

**2014-cü ildən etibarən Azercell-in dəstəyilə fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsi (UPK) pandemiya şəraitində belə fəaliyyətini dayandırmayıb. 2020-ci ildə komitənin məşqçiləri virtual təlimlər təşkil edərək uşaqlarla onlayn qaydada məşğul olublar. Bu da balaca idmançıların aktivliyini saxlamağa, onlarda ruh düşkünlüyünün yaranmasının qarşısının alınmasına kömək edib.**




Məhdudiyyətlərə baxmayaraq, 2020-ci ildə komitənin həm də regional bölmələri fəaliyyətə başlayıb. Belə ki, ötən il UPK-nin Lənkəran, Ağcabədi, Gəncə və Qusardakı şöbələri yaradılıb. Burada cüdo, pauerliftinq, dağ xizəyi və snoubord idman növləri üzrə seksiyalar fəaliyyətə başlayıb və ilkin seleksiya işləri aparılıb. Artıq bu bölgələr üzrə komitəyə üzv olan uşaqlarla məşqlərə də başlanılıb. COVİD-19 virusunun yayılması ilə əlaqədar ölkəmizdə bütün kütləvi tədbirlər təxirə salındığından, ötən il uşaq paralimpiyaçılar arasında ənənəvi yekun yarışma baş tutmayıb. Lakin Uşaq Paralimpiya Oyunlarının təşkili üçün nəzərdə tutulan vəsait uşaqlar üçün yeni idman alətlərinin - boccia üzrə idmançılara yüksək keyfiyyətli topların alınmasına yönəldilib. 2020-ci ildə Uşaq Paralimpiya Komitəsinin fəaliyyətindəki yeniliklərdən biri də ilk dəfə olaraq uşaqlar üçün qış idman növlərinin - dağ xizəyi və snoubord əlavə olunmasıdır. Qeyd edək ki, indiyədək Uşaq Paralimpiya Komitəsi tərəfindən 8 idman növü üzrə məşqlər keçirilirdi. Bura cüdo, üzgüçülük, para-taekvando, pauerliftinq, boccia, qolbol, stolüstü tennis, əlil arabasında idman rəqsləri daxildir. Komitənin işindəki yeniliklərdən biri də uşaq paralimpiyasına daha çox idmançı cəlb etmək məqsədilə valideynlərdən ibarət “Valideyn klubu”nun yaradılmasıdır.

2020-ci il ərzində sağlamlıq imkanları məhdud daha 40-a yaxın uşaq UPK-nin sıralarına qatılıb. Ümumiyyətlə, UPK-nin səyi ilə 7 ildən çox müddətdə fiziki məhdudiyyətli 160-dən artıq uşaq və yeniyetmənin 10 idman növü üzrə kütləvi idman tədbirlərində, yerli və beynəlxalq səviyyəli yarışlarda fəal iştirakına nail olunub.

Qeyd edək ki, Uşaq Paralimpiya Komitəsi beynəlxalq təcrübədə ilk dəfə olaraq 2013-cü ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində yaradılıb. Komitə sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edir. ”Azercell Telekom” MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.

**SUAL-CAVAB**

### *Ailə vəziyyəti ilə bağlı kənd məktəbindən şəhər məktəbinə iş yerini necə dəyişmək olar?*

- Bir rayon (şəhər) daxilində müəllimlərin yerdəyişməsi məsələsinə rayon (şəhər) təhsil şöbəsi (idarəsi) tərəfindən baxılır. Bir rayondan (şəhərdən) digər rayona (şəhərə) iş yerinin dəyişdirilməsi üçün isə ərizə ilə Təhsil Nazirliyinə müraciət edilməlidir. Təhsil Nazirliyi tərəfindən müraciətə baxılır və aparılan araşdırmanın nəticəsinə uyğun olaraq müvafiq cavab verilir.

---

### *Gənclərin peşə reabilitasiyası mərkəzində kursların müddəti nə qədərdir?*

- Gənclərin peşə reabilitasiya mərkəzində tələbələr 10 peşəyə yiyələnə bilərlər. Mərkəzdə tikişçi, toxucu, kompyuter istifadəçisi, kompyuterçi-dizayner, kişi bərbəri, qadın bərbəri, aşbaz köməkçisi, idman kursunun müddəti 3 aydır. Xalçaçılıq, ağac üzərində oyma və rəssamlıq kursları isə 6 aylıq nəzərdə tutulub.

---

### *Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə hesablanan müavinətdən icbari tibbi sığorta haqqı hesablanacaqmı?*

- “Tibbi sığorta haqqında” qanuna əsasən icbari tibbi sığorta hesablanacaq “əmək haqqı” dedikdə, Əmək Məcəlləsinin 154-cü maddəsinin tələbləri əsas götürülür. Həmin maddəyə əsasən, əməkhaqqı müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusudur. Əmək Məcəlləsinin 157-ci maddəsində də qeyd edilir ki, əmək haqqının tərkibinə aylıq tarif (vəzifə) maaşı, əlavələr və mükafatlar daxildir.Vergi ödəyicisi yuxarıda qeyd edilən gəlirlərə uyğun məbləğdən icbari tibbi sığorta haqqı hesablamalıdır. Tutaq ki, 2021-ci ilin yanvar ayı üzrə işçinin aylıq əmək haqqı 400 manat təşkil etdiyi halda, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət 200 manat olaraq hesablanılıb. Bu halda əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətdən icbari tibbi sığorta haqqı tutulmayacaq.

---

### *Məişət abonentləri sayğaclara görə haqq ödəməlidirmi?*

- “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən fiziki şəxs olan istehlakçıların sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi enerji təchizatı müəssisəsinin hesabına həyata keçirilir. Eyni zamanda “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 13.9-cu maddəsinə əsasən məişət qaz qurğularının istifadəsi üçün qaz sayğacı qaz paylayıcısının vəsaiti hesabına təchiz edilir, quraşdırılır və dəyişdirilir.

---

### *İşçinin saatlıq icazəsi necə tənzimlənməlidir?*

- Əmək Məcəlləsinin 12-ci maddəsinin “ə” bəndinə əsasən işçilərin əmək, maddi, sosial-məişət şəraitinin, onların ailəsinin rifah halının yaxşılaşdırılması üçün müəssisənin əsasnaməsinə (nizamnaməsinə), kollektiv müqaviləyə müvafiq olaraq zəruri tədbirlər görmək işəgötürənin əmək münasibətləri sahəsində əsas vəzifələrindən biridir. Azərbaycan Respublikası 2010-cu il 11 may tarixli 1003-IIIQ nömrəli Qanunu ilə Beynəlxalq Əmək Təşkilatının ”Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında” 156 nömrəli Konvensiyasına qoşulmuşdur ki, bu Konvensiyanın 5-ci maddəsinə əsasən milli şəraitə və imkanlara uyğun olaraq bütün tədbirlər görülür ki, yerli səviyyədə tədbirlərin planlaşdırılmasında ailə vəzifələri olan işçilərin tələbatları nəzərə alınsın. Bu Konvensiyanın 165 nömrəli tövsiyəsində göstərilir ki, milli səviyyədə elə şərait yaradılmalıdır ki, haqqı ödənilən iş yerinə yetirən və ya yerinə yetirmək istəyən, ailə öhdəlikləri olan şəxslər hüquqlarını ayrı-seçkiliyə məruz qalmadan və mümkün olan qədər peşə və ailə öhdəliklərini harmonik birləşdirərək həyata keçirə bilsinlər, onların əmək şəraiti və sosial təminat sahəsində tələbatları nəzərə alınsın, ailə öhdəlikləri olan işçi, onun qulluğuna və ya köməyinə ehtiyacı olan digər yaxın ailə üzvünün xəstələndiyi halda, məzuniyyət almaq imkanına malik olsun, ailə öhdəliklərinin yerinə yetirilməsini yüngülləşdirmək üçün hər növ dövlət və özəl xarakterli tədbirlərin keçirilməsinə kömək göstərilsin.



Qeyd edilənlərə əsasən, işçilər, xüsusilə ailə vəzifələri olan işçilər maddi-məişət şəraiti ilə əlaqədar olaraq, işəgötürəndən iş vaxtı ərzində icazə ala bilərlər ki, bu halda onların maraqları işəgötürən tərəfindən nəzərə alınmalı, mümkün olduğu qədər işəgötürən tərəfindən onların icazə aldıqları iş saatlarında əmək haqlarının saxlanılması təmin edilməlidir. İşçilərə əmək haqqı saxlanılmaqla icazələrin verilməsi kollektiv müqavilələrdə, kollektiv müqavilə bağlanılmadıqda əmək müqaviləsində tənzimlənə bilər.

*Sevinc*

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ

## Anım

**Qəhrəmanlıq salnamələri ilə zəngin olan 44 günlük Vətən müharibəsi Azərbaycanın ictimai həyatı üçün xüsusi önəm daşıyan mühüm bir məqamı da üzə çıxardı. Məlum oldu ki, Azərbaycan xalqı, xüsusilə gənclər lazım olan anda bir yumruq ətrafında birləşə və məğlubedilməz gücə çevrilə bilir. Məhz bu birlik və həmrəylik Ali Baş Komandanın dediyi kimi, dəmir yumruğa çevrilərək Azərbaycan xalqına zəfər qazandırdı. Əslində, hər şey iyulun 12-də işğalçı Ermənistanın Tovuzda törətdiyi təxribatla başlamışdı.**

İşğalçı ölkə dövlət sərhədlərindən hücuma cəhd göstərərkən general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin şəhid olması Azərbaycan xalqınını səbrini daşırdı, gənclər böyük coşqu ilə orduya dəstək aksiyalarına başladı, cəbhəyə yollanmaq üçün kütləvi şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rayon şöbələrinə axışdı. Elə həmin günlərdə SHXÇDX-yə mürasciət edərək könüllü kimi ön cəbhəyə yollananlardan biri də 25 yaşlı Anar Heydərov idi. Onun Füzulidən başlayan döyüş yolu Xocavənddən, məşhur Daşaltı kəndidən, Qarabağın baş tacı olan Şuşa şəhərindən keçdi.

### Tanıtım:

**Heydərov Anar Çingiz oğlu 1995-ci il aprelin 17-də Bakı şəhərində anadan olub. 2011-ci ildə Bakının Səbail rayonunda fəaliyyət göstərən Zəngilan rayon orta 10 saylı məktəbi biririb. 2015-2016-cı illərdə Azərbaycan Dənizçik Kolleçinin Gəminin idarə olunması və təşkili fakültəsində təhsil alıb. 2013-2014-cü illərdə Ağdamda həqiqi hərbi xidmətdə olub.**

O, hərbi xidmətini Ağdamın Orta Qərvənd kəndinə əfsanəfi kəşfiyyatçı, şəhid polkovnik Raquf Orucovun komandiri olduğu hərbi hissədə keçib. 2016-cı ilin "Aprel döyüşləri"ndə şəhid olmuş Raquf Orucovu şəxsən tanıyırdı, onun döyüş xatirələri, işğal altındakı Ağdamda anasının qəbrini ziyarət etdiyini də eşitmişdi. Raquf Orucovla bağlı bir xatirəsini də xatırlayır: "Bizm postlarımızı həmişə Raquf Orucov özü yoxlayırdı. Bir dəfə əsgərlər maaş alanda postda təmizlik işləri aparmaq üçün öz pulumuzla xlor almışdıq. Beş ədəd litrlik xloru qazana töküb işə başlayarkən hərbi hissə komandiri Raquf Orucov, qərargah rəisi polkovnik-leytenant Elsevər Əhmədov və təlim-tərbiyə işləri üzrə müavin mayor Çingiz Mehdiyev gəldilər. Gördülər ki, xlor əlimdə qazanın içərisinə boşaldıram. Raquf Orucov nə etdiyimi soruşdu, cavabı eşidəndən sonra manqa komandiri kimi belə bir təşəbbüs göstərdiyimə görə məni bağrına basaraq öpdü...".

Anar Heydərov hərbi xidməti başa vurduqdan sonra Bakıda müxtəlif ticarət obyektlərində satıcı işləyib. Ailədə iki qardaşdırlar, Anar həm də evin kiçiyidir. Subaydır, Bakıda kirayə mənzildə yayşır.

### Polad Həşimovun şəhadətinin 3-cü günü...

**Ermənistanın ötən yay Tovuzda törətdiyi təxribatlar zamanı Anar Heydərov könüllü kimi cəbhəyə yollanmaq üçün SHXÇDX-nin Səbail rayon şöbəsinə müraciət edib.** Bu, general Polad Həşimovun şəhadətə qovuşmasının 3-cü gününə təsadüf etmişdi. Orada ona "Könüllü döyüşçülərə hələ ehtiyac yoxdur, lazım olsa çağıracağıq", - deyə bildirmişdilər. Oktyabrın 5-də isə SHXÇDX-nin Səbail rayon şöbəsindən gələn çağırış əsasında Anar Heydərov bir qrup könüllü gənclərlə birlikdə cəbhəyə yollanıb. "Bizi əvvəlcə Ağcabədiyə apardılar, oradan isə döyüşə göndərdilər. Oktyabrın 13-14-də Ağcabədidən Füzuli istiqamətinə apardılar. Hadrut yolu ilə getdik, Füzuli şəhərində, Alıxanlı, Qaraxanbəyli, Aybasanlı və digər kəndlərin azad olunması uğrunda döyüşdük. Oradan isə gecə ilə Xocavəndin Tuğ kəndinə, bir neçə gündən sonra Şuşaya - Topxana meşəsinə getdik", - deyə gənc döyüşçü bildirir.

Qruplara bölünərək "Topxana" meşəsinin ortasından keçərək, Daşaltı kəndinə doğru irəliləyən döyüşçülər bölük komandiri Amil Hüseynovun rəhbərliyi altında keçilməz yollarla döyüş mövqelərini tutmalı idilər. Baş Anargilin bölüyü döyüş mövqelərini tərk edib qaçan ermənilərin arxasına düşüb onları təqib edir, daha çox itkilərə mərz qoymağa çalışırdı. Məqsəd düşmənin bütün canlı qüvvəsini məhv etmək idi. "Qaçan erməniləri təqib edərkən ətrafdakı yüksəkliklərdən minaatanla bizi vurdular. Yəqin, onları tamamilə məhv edə biləcəyimizi başa düşmüşdülər, həmin istiqaməti aramsız atəşə tuturdular. Buna görə də istiqamətimizi dəyişib dağa tərəf qalxdıq. Ermənilərin nə qədər qorxaq olduğunu burada bir daha gördük. "Allahu-Əkbər" sədaları altında düşmənin üzərinə şığıyırdıq, onlar isə "Allahu-Əkbər" sözlərini təkrarlamaqla, guya, Azərbaycan əsgərləri olduqlarını hiss etdirmək, qaçıb canlarını qurtarmaq üçün imkan qanmaq istəyirdilər. Hər dəfə "Allahu-Əkbər" sədaları ilə hücuma keçəndə düşmənin necə təşvişə düşdüyünü, qorxub qaçdıqlarını görürdük...", - Anar Heydərov böyük iftixar hissi ilə danışır.

# Füzulidən Daşaltıya, Daşaltıdan Şuşaya...

## Şəhid polkovnik Raquf Orucovun keçmiş əsgəri, Vətən müharibəsi iştirakçısı Anar Heydərovun döyüş yolu



gizir Əhməd, snayperçi Nəzərli İlkin, gizir Vasif Cəfərli və daha bir neçə döyüşçünün olduğu birinci qrup qabaqda gedirdilər. Anar Heydərovgilin qrupu isə bir qədər arxada irəliləyirdi. Düşmən hər tərəfdən Azərbaycan Ordusunun mövqelərini atəşə tuturdu. Sərt dağlıq ərazilər, soyuq iqlim şəraitində Daşaltıya enmək o qədər də asan deyildi: "O cür yollarla irəliləmək çox çətin idi, düşmən sağımızı-solumuzu vururdu. Həmin ərazidə itkilərimiz də oldu, şəhid və yaralananlarımız da. Biz nəyin bahasına olur-olsun, tapşırığı yerinə yetirməli, lazım olan mövqeləri tutmalı idik. Bölük komandirimiz Amil Hüseynov yüksəklikdə erməni barağını "PK" ilə vuraraq dağıtdı. Sonradan onun özü də Xankəndi yolunun üstündə ayağından yaralanmışdı. Biz dağa çıxanda gördüm ki, döyüş yoldaşlarımız onu da özləri ilə çıxarıblar. Yəni, hamı bir-birinə kömək edirdi. Mən fəxr edirəm ki, elə bir komandirin bölüyündə xidmət etdim. Cox mehriban döyüş yoldaşlarım vardı, hamı bir-birinə ruh verirdi, "Hər şey yaxşı olacaq" deyə bir-birini döyüşə ruhlandırırdı".

Anar Heydərovla eyni tağımda xidmət edən snayperçi İlkin Nəzərli həmin vaxt qarın boşluğunun yuxarı hissəsindən yaralanmışdı. Beyləqanlı döyüşçü, çavuş Bəyişli isə Anarın lap yaxınlığında düşmən gülləsinə tuş gəlmişdi. "Çox mehriban oğlan idi, boş vaxtlarımızda dərdləşirdik. Həmişə deyirdi ki, müharibə bitən kimi evlənəcəyəm. Onun da arzusu gözündə qaldı, şəhidlik zirvəsinə ucaldı", - deyə Anar Heydərov Beyləqan rayonundan olan çavuş Bəylini ehtiramla xatırlayır.

Göyçaylı Qüdrət də Anarın yanında şəhid olmuşdu. Ermənilər Azərbaycan əsgərlərini minomyotla atəşə tutarkən Qüdrət düşmənin hədəfindən yayınmaq üçün aşağı əyilsə də, özünü qoruya bilməmişdi. Arxaya çəkilən zaman atılan növbəti gülLədən sonra əbədiyyətə qovuşmuşdu.

Hərbi bölmələrimiz çətinlik bahasına olsa da, "Topxana" meşəsindən keçib Daşaltı kəndinə daxil ola bilmişdi. Kəndin girişində işğalçıların çəhrayı boya ilə rənglənmiş abidəsi önündə hansısa bir canlanmanın olduğu onların diqqətindən yayınmamışdı. Hamı yerə uzanaraq ətrafı diqqətlə müşahidə etməyə başlayır. Leytenant Fərid Əliyev, gizir Elşad, Orxan Məmmədov döyüşçüləri tələsik addım atmamağı tövsiyə edir. Elə bu vaxt düşmən minaatanla onları atəşə tutur. Qızğın döyüş başlayır, əsgərlərdən biri yaralansa da, hərbi bölmələrimiz döyüşə-döyüşə Daşaltının mərkəzinə doğru irəliləməyə çalışır. Düşmən əsgərlərinin gizləndiyi mövqelər lap yaxınlıqda idi - cəmi 100-120 metrlik məsafədə. Buradan ermənilərin çoxlu itki verdiyi aydın görünürdü, abidənin ətrafı yaralılarla dolu idi. Düşmən Azərbaycan Ordusunun hücumları qarşısında tab gətirməyərək qaçmağa başlamışdı.

Noyabrın 6-da gecə ikən Daşaltıdan çıxıb 2-3 saata qədər çayın içərisi ilə Şuşaya doğru irəliləyən bölük Xankəndi yolunun yaxınlığında düşmənin qəfil həmləsi ilə qarşılaşır. Ermənilər hər tərəfdən minaatanla atəş açır, Azərbaycan Ordusunun irəliləməsinin qarşısını almağa çalışırdı. Anargilin bölüyü həmin döyüşlərdə ikti versə də, inamla irləliyir, döyüş tapşırığını yerinə yetirmək və müəyyən edilmiş hədəflərə çatmaq üçün vuruşmaqda davam edirdi. Həmin döyüşlərdə Anar Heydərov da yüngül xəsarət almışdı. O, yaralandığını keç kəsə dememiş, bunu gizlətməyə çalışımışdı: "Orada zabitlər vardı ki, qolunun yarısını güllə sivirib qoparmışdı, sümüyü görünürdü.

Bununla belə, yarasının üstünü bağlayıb döyüşə davam edirdi. Bölük komandirimiz ayağından yaralansa da, "Mən yaxşıyam, heç kim narahat olmasın!" - deyib onu döyüş zonasından çıxarmağa çalışan əsgərlərin köməyindən imtina edir, "Mən özüm gələcəyəm, siz mümkün qədər irəliləyin", - söyləyirdi (indi həmin komandir qoltuqağacı vasitəsilə yeriyir - müəl.). Döyüşçülər yaralı komandirə kömək edərək onu təhlükəli zonadan çıxara bilmişdi. Səhərə yaxın çayın içərisi ilə irəliəyib Xankəndi yoluna çatanda ermənilər kasetli bomba atdı, ardınca BTR-lərin köməyi ilə hücuma keçdilər. İtkilərimiz olsa da, mövqelərimizi qoruyub saxlaya bildik, düşmən qaçmağa məcbur oldu. Biz Xankəndi yolunun üzərindəki "Şuşa" istirahət mərkəzinin yaxınlığında ələ keçirilmiş postda möhkəmləndik. Ertəsi gün erməni snayperləri bizi atəşə tuturdu. Snayperin hansı istiqamətdən atıldığını müəyyən etmək çətin idi. Döyüşçü yoldaşlarımızdan bir neçəsi aşağıdakı bulağın yanına enərək düşmənin yerini müəyyənləşdirmiş, biri qadın olmaqla 4 erməni snayperçisini yerindəcə məhv etmişdi".

Anar Heydərov hərbi hissə komandirinin təlim-tərbiyə işləri üzrə müavini leytenant Şamxal Əliyevi da ehtiramla xatırlayır: "Şamxal Əliyev döyüşə girəndə bizi əli ilə arxaya itələyirdi ki, qabaqda mən gedəcəyəm, eyni uilə bölük komandirimiz kimi. İlkin Nəzərli, gizir Vasif Cəfərli (müharibədən sonra Ali Baş Komandanın sərəncamı ilə ona leytenant rütbəsi verilib) isə zarafatla deyirdi ki, sən subaysan, məndən qabaqda getmə. Sağ olsun, hər biri balaca qardaşı qədər qayğıma qalır, çətinliyə düşəndə köməklik edirdilər. İndi təəssüratlarımı bölüşdükcə anlayıram ki, döyüş şəraitində silahdaşlarla birlikdə olmaq tamamilə başqa bir hissdir".

Noyabrın 8-də Anargilin bölüyü Daşaltıdan qalxaraq Şuşaya daxil olmuşdu. Düşmənin müqaviməti qırılmış, Şuşa şəhəri işğaldan azad edilmişdi. Azərbaycan Ordusu Xankəndi şəhərinin lap yaxınlığında - Xankəndi-Şuşa yolunun üstündəki meşəlik ərazidə mövqe tutmuşdu. Xankəndi şəhərinin işğalçılardan təmizlənməsi bir an məsələsi idi. Şəhərdə mülki əhali, demək olar ki, görünmürdü. İşğalçı ordu bölmələrinin çaşqın vəziyyətdə olduğu açıq hiss olunurdu. Qarabağın mərkəzi şəhərinin tezliklə ordumuzun tam nəzarətinə keçəcəyinə heç bir şəkk-şübhə yox idi. Amma...

Anar Heydərovgilin bölüyü Şuşa-Xankəndi yolunun üzərindəki mövqelərdə möhkəmləndirmə işləri apararkən müharibənin dayandığı, Rusiyanın vasitəçiliyi ilə üçtərəfli razılaşma əldə edildiyi və işğalçı Ermənistanın kapitulyasiya aktına imza atdığı barədə məlumatlar yayılmağa başladı. Sıravi əsgərlər və könüllü döyüşçülər bu məlumatın doğruluğuna inanmasalar da, bu, həqiqət idi. Bölük komandiri "Müharibə dayanıb, atəşkəs elan olunub. Ali Baş Komandanımız xalıqa müracət edərək Ermənistanın Baş nazirinin kapitulyasiya aktına imza atdığını bildirib", - deyə şəxsi heyətə elan etdi.

Bundan sonra hərbi bölmələrimiz yaralı əsgərlərimizin, şəhidlərin təxliyəsi ilə məşğul olmağa başladı. Şuşa və Xankəndi ətrafında şəhid və yaralıların təxliyəsi başa çatdıqdan sonra Anargilin bölüyü Şuşa türməsində cəmləşdi. Əsgərlər burada ermənilərin 2014-cü ildən girovluqda saxladığı Dilqəm Əsgərov və Şahbaz Quliyevə məxsus olduğu güman edilən şeir dəftərçəsi və gündəlik tapmışdılar. Saxlama qameralarının birində Azərbaycan xəritəsi və Azərbaycanın "Əlifba kitabı" da vardı.

"Dilqəmlə Şahbazın saxlanıldığı kameradan tapdığımız əşyaları əsgərlərdən biri götürdü, dedi ki, onların ailəsinə çatdıracaq. Azərbaycan xəritəsi və "Əlifba" kitabını komandirə də göstərdik. Dedi ki, Şahbazla Dilqəmin "Əlifba" kitabına ehtiyacə olmaz, yəqin ermənilər özləri Azərbaycan dilini öyrənmək istəyirmişlər. Bizim xüsusi təyinatlılarımız Şuşa türməsində bir erməni zabiti də tutmuşdular. Həmin erməni zabit Şahbaz Quliyevlə Dilqəm Əsgərovun bir neçə gün əvvəl Ermənistana aparıldaqlarını söyləmişdi", - deyə Anar Heydərov bildirir.

Şuşanın azad edilməsinin 10-cu günündə Anargilin bölüyü Şuşanın Qaybalı kəndinə qalxaraq dəniz səviyyəsindən 2500-3000 metr yüksəklikdə yerləşən bu məntəqədə möhkəmləndi. Hərbi bölmələrimiz həmin ərazilərdə möhkəmlənmə işləri apararkən müşələrə doluşmuş erməni silahlı qüvvələrini nəzarət altında saxlaya bilmək üçün 3 yerdə keşikçi postu qurmuşdu. Hər üç post Xankəndi yolunun üzərində yerləşirdi, şəhərin küçələrində hərəkət edən hərbi və ya mülki şəxslər buradan aydın şəkildə görünürdü. Buna görə də ermənlər Xankəndi yolundan yalnız Rusiya sülhməramlılarının müayiəti altında istifadə edirdilər.

### İki medalla evə dönüş...

**Şuşanın ətraf ərazilərindəki bütün döyüş nöqtələrində Anar Heydərovun ayaq izləri var. Döyüşlərdən sonra manqa komandiri kimi təkcə Qaybalıda 26 gün postda dayanıb. Burada birinci taborun ikinci bölüyündə (komandir leytenant Müşfiq Həsənli) xidmət edib, sonradan isə xidmətini ikinci taborda davam etdirib.** O, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunması xəbərini də elə Qaybalıda postda olarkən eşidib: "Mən təltif olunduğumu eşidəndə postda döyüş növbətçisi idim. Manqa komandiri kimi dəstəni döyüş postuna çıxaran zaman tağım komandirimiz, baş leytenant Samir Paşayev "Füzulinin azad olunmasına görə" təltif edilənlər arasında mənim də adımın olduğunu söylədi.

Bunu eşidəndə hansı hisslər keçirdiyimi sözlə ifadə edə bilmirəm. Təltif olunmağımdan qürur hissi keçirdim, özümü qəhrəman kimi hiss edtdim - Allahverdi Bağırov, Polad Həşimov, Raquf Orucov, Mübariz İbrahimov, Fərid, Xudayar kimi. Mənim ağlıma gəlməzdi ki, Vətən müharibəsi tezliklə başlayar, həmin müharibədə iştirak edər və sonda düşməni məğlub edərək qələbə qazanar və mən də bu döyüşlərdə iştirakıma görə Ali Baş Komandanın sərəncamı əsasında təltif olunaram. Bu, həqiqətən mənim üçün sürpriz oldu. Özümü çox şanslı sayıram ki, İkinci Qarabağ müharibəsində iştirak etmişəm və ordumuzun qazandığı bu zəfərdə mənim də payım var".

Anar Heydərovu "Şuşanın azad olunmasına görə" medalı daha çox gözləyirdi. Axı, onun 44 günlük Vətən müharibəsindəki döyüş xidmətlərimin çoxu Şuşa və Şuşaətrafı kəndlərdə olmuşdu. Komandirləri də onun adını "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunanların siyahısında axtarırdılar.

Bu, o qədər də vacib deyil, əsas odur ki, torpaqlarımız düşmənin işğalından azad edilib: "Mən döyüşə yollananda hansısa medalla təltif oluna biləcəyimi ağlıma belə gətirmirdim. Biz yalnız torpaqlarımızı işğaldan azad etmək, qələbə qazanmaq barədə düşünürdük və bu amalla döyüşlərə qatılmışdım. Tərxis olunandan sonra müharibədə iştirak etdiyinizə görə 906 manat aldım, həmin vəsaitin, demək olar ki, hamısını şəhidlərin məzarları üzərinə əklil almağa, evlərinə ziyarət və bu kimi işlərə xərclədik. Şəhid ailələrinə hansı dəstəyi göstərsək də, yenə azdır. Ona görə dövlət bizə verdiyi pulları da bu işlərə sərf etdik ki, şəhid qardaşlarımızın ruhu şad olsun. O pulu verməsələr də, biz onu edərdik. Yəni biz Vətəni qorumağa getmişdik, orden və ya pul almaq barədə düşünmürdük".

Yanvarın 1-də Qaybalı kəndində möhkəmləndirilmiş mövqelərdə xidmətdə olan 35 nəfər könüllü ordu sıralarından tərxis olunmaq üçün Şuşa şəhərinə gətirilir. Həmin axşam onları Beyləqana gətirdilər. Hərbi biletlərimin yazılması, sənədlərin təsdiqlənməsi üçün iki gün Beyləqanda qaldıqdan sonra Anarın da daxil olduğu 35 könüllü döyüşçü evə buraxıldı.

Qalib qazi kimi evə qayıdan Anar Heydərovu Bakıdakı dostları gül-çiçəklə, böyük çoşqu ilə qarşıladı...

*Elxan Salahov*

## HƏFTƏ REYTİNQ

### Həftənin NAZİRİ



Prezident İlham Əliyevin sərəncamı ilə Rəşad Nəbiyev "Azərkosmos" ASC-nin sədri vəzifəsindən azad edilərək nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin edilib. 1977-ci il təvəllüdlü R.Nəbiyev 1994-2000-ci illərdə Dövlət İdarəçilik Akademiyasında təhsil alaraq Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə bakalavr və magistr dərəcəsi alıb, 2000-2002-ci illərdə isə ABŞ-nın Şərqi Karolina Universitetində iqtisadiyyat üzrə magistr dərəcəsinə yiyələnib.2004-2011-ci illərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Maliyyə, uçot və iqtisadi təhlil şöbəsinin müdiri vəzifəsində işləyib. Prezident İlham Əliyevin 2011-ci il 24 yanvar tarixli Sərəncamına əsasən, "Azərkosmos" ASC-nin sədri vəzifəsinə təyin edilmişdi.

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyev Aydın Kərimovu Şuşa şəhərinə xüsusi nümayəndə təyin etdi. O, bundan öncə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müşaviri olub. Şuşanın hazırkı xüsusi nümayəndəsi daha öncə "Ağ şəhər" layihəsinin həyata keçirilməsində böyük rol oynayıb. Beynəlxalq konfranslarda inşaat sahəsində rəqəmsal texnologiyalar və BİM texnologiyaları haqda çıxışlar edib.

### Həftənin XƏSTƏSİ



Nəcməddin Sadıkovun səhhətində ciddi problem yaranması, Moskvada açıq ürək əməliyyatı keçirməsi barədə məlumat yayılıb. Müdafiə Nazirliyindən bildirilib ki, Nəcməddin Sadıkov hazırda hərbi xidmətdə deyil. Qeyd edək ki, general-polkovnik N. Sadıkov Müdafiə Nazirliyinin Baş Qərargah rəisi idi. Onun adı nazirliyin rəsmi saytının struktur bölməsindən də çıxarılıb.

### Həftənin YUBİLYARI



Xalq artisti Aygün Kazımova 50 yaşını qeyd edib. Pop ulduz yubileyini pandemiya səbəbindən evində çox az sayda dostları ilə birgə qeyd edib. Qonaqlar Kazımova ilə olan fotolarını sosial şəbəkədə paylaşıblar. Xalq artistinin özü də instaqram səhifəsində güllərlə çəkilmiş şəklini yayaraq onu təbrik edən hər kəsə təşəkkürünü bildirib: "Sizin sevginizdir məni yaşadır".

### Həftənin "QAYDAPOZANI"

"Yuventus"un portuqaliyalı ulduzu Kriştianu Ronaldo və sevgilisi Corcina Rodrigez karantin qaydalarını pozublar. Onlar Pyemont və Valle-Daosta arasında sərhədi keçərkən qaydalar çərçivəsindən çıxıblar. Cütlük Corcinanın 27 yaşını dağ xizəyi kurortunda qeyd edib. Daha sonra onlar rəsmi şəkildə bağlı olan otelə gediblər. Doğum günündən görüntülər yayılsa da, sonrada video sosial şəbəkələrdən silinib.

### Həftənin "PROQNOZU"



"Microsoft"un qurucusu Bill Geyts növbəti proqnozu ilə gündəm oldu."Biz növbəti pandemiyaya hazır deyilik. Ümid edirəm, iki ildən sonra vəziyyət fərqli görünəcək. Vaksinlər, testlər, dərmanlar, epidemiologiya, monitorinq - görüləsi çox iş var", - deyə Qeyts bildirib. Onun sözlərinə görə, COVİD zəlzələ, tornado və iqlim dəyişikliyi kimi gündəlik həyatın bir hissəsinə çevrilib.

### Həftənin "EVSİZİ"



ABŞ-ın keçmiş vitse-prezidenti Mayk Pens və xanımı Vaşinqtondan ayrılaraq doğma əyalətlərinə qayıtdıqdan sonra evsiz qalıblar və yaxınlarının evində qalmağa məcbur olublar. "Business Insider" Pensin yaxın ətrafındakı mənbələrə istinadən məlumat verib ki, Pens İndianaya qayıtdıqdan sonra qubernator Erik Holkombun bağ evində qalır. Qəzet keçmiş Prezident Donald Trampın müşavirlərindən birinin sözlərini sitat gətirərək "Onun evi, yaşamaq üçün yeri yoxdur",- deyə qeyd edib.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



**XTQ giziri şəhid Zaur Ələsgərlinin dünyaya yeni gələn övladı Ayazı xəstəxananın qarşısında şəhidin döyüş yoldaşları qarşılayıb...**

# Keçmiş səfirdən Rusiyaya ittiham

**Əfşar Süleymani,**
İranın Azərbaycandakı keçmiş səfiri

Ermənistan hələ də özünü Qarabağ ermənilərinin mühafizəçisi kimi görür.

Səh. 5

## STATİSTİKA



■ Hazırda dünyada 3 439 000 000 kişi yaşayır. Onların orta ömür yaşı 64,52 ilə bərabərdir. Qadınlarda isə bu göstərici 71,43 ildir.

■ Dünyada 40 fiz insan arxasınca onun barəsində mənfi şeylər danışıldığından narahatlıq keçirir.

■ İngiltərəli alimlərin hesablamaların görə optimizm infarkt riskini 3 dəfə azaldır.



Səh. 7

# Muzeylər karantindən sonra...